KHAZAR REVIEW
№ 391 Yanvar 2020

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org







# İÇİNDƏKİLƏR

Universitet xəbərləri .................................... 4
Xəzər Universiteti ilə IPBES-in birgə beynəlxalq tədbiri .................... 10
Fələstin səfiri Xəzər Universitetində .................................... 14
Meksika səfiri İqtisadiyyat və menecment fakültəsində mühazirə oxudu ... 16
Xəzər Universitetinin nümayəndələri İranda .................................... 20
"Mövlana Cəlaləddin Rumi şeirinin irfani və poetik xüsusiyyətləri" mövzusunda dəyirmi masa .................................... 30
Tələbələrin Gəncəyə səfəri .................................... 34
"Qış festivalı və Çin mətbəxi" adlı tədbir .................................... 40
Almaniya səfiri Xəzər Universitetində .................................... 44
5-ci Avrasiya elmi araşdırmalar və müasir tədqiqatlar konfransı ............ 46
Türkiyəli qonaqlar Xəzər Universitetində .................................... 54
"Asılı olma, azad ol!"adlı tədbir .................................... 58
Universitetin nümayəndələri Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunda..... 60
MƏFAM-ın ictimaiyyətə təqdimatı .................................... 62
Sumqayıt "Dünya"məktəbində "Elm şənliyi" sərgisi .................................... 70
"Dünya" məktəbində əlil və qəyyumluqda olan uşaqlar üçün yeni il şənliyi .................................... 74
Turizm agentliyinin əməkdaşları tələbələrlə görüşdülər .................... 75
Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram şənliyi .................................... 76

1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Gülcan kulsumat

Kompüter tərtibatçısı:
Günel Əkbərova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Gulshan Kulakhmet

Computer graphics:
Gunel Akbarova
Photo:
Multimedia Centre




# YUXARI KURS TƏLƏBƏLƏRİNİN KARYERA İMKANLARI DƏYƏRLƏNDİRİLDİ

2019-cu il noyabrın 29-da Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə İnşaat mühəndisliyi ixtisası üzrə təhsil alan 3-cü və 4-cü kurs tələbələrinin karyera imkanlarının dəyərləndirilməsi məqsədilə Ramco QSC tikinti şirkətinin əməkdaşları ilə görüş keçirildi.. Görüşü Karyera Mərkəzinin koordinatoru Fəxrəddin Abdullayev açaraq, tələbəlrin öz karyera imkanlarını düzgün dəyərləndirmələrinin və təcrübə proqramlarında fəal iştirak etmələrinin əhəmiyyətini vurğuladı və bu halda peşəkar işçilərə çevrilməyin mümkün olduğunu qeyd etdi.

Sonra söz şirkətin əməkdaşlarına verildi. Şirkətin insan resursları üzrə assistenti İlkin Cavadzadə çıxış edərək, tələbələrə Ramcoda müvafiq iş tapmaq imkanları haqqında məlumat verdi. Şirkətin digər nümayəndələri də təqdimatın gedişində potensial işçilərdə və təcrübəçilərdə axtardıqları dəyərləri qeyd etdilər.

Təqdimatın sonunda tələbələrin sualları cavablandırıldı və şirkətin potensial işçisi olmaq üçün imtahan keçirildi.

# CAREER OPPORTUNITIES FOR SENIOR STUDENTS ASSESSED

On November 29, 2019, Khazar University Career Center invited the Ramco CJSC construction company in order to assess the career opportunities of 3rd and 4th year students majoring in Civil Engineering. Opening the meeting, Fakhraddin Abdullayev, Coordinator of the Career Center, emphasized that students should properly evaluate career opportunities and actively participate in internship programs, and thuswise it would be possible to become professional workers. Then the word was given to the company's employees. The presentation was made by the company's human resources assistant, Ilkin Javadzade, who provided students with information on the opportunities to find the right job in Ramco. Following that, other representatives of the company, while delivering presentations, also highlighted the value they sought in potential employees and practitioners.

At the end of the presentation, students' questions were answered and an entry exam for potential employees of the company was held.



# TURİZM VƏ OTELÇİLİK İXTİSASININ TƏLƏBƏLƏRİ BAKI TURUNDA

# STUDENTS MAJORING IN TOURISM AND HOTEL MANAGEMENT ON BAKU TOUR

2019-cu il dekabrın 1-də Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin turizm və otelçilik ixtisasının tələbələri İqtisadiyyat və menecment departamentinin müəllimləri – Kamran Behbudov və Qəhrəman Yusupovun rəhbərliyi ilə Bakı turunda oldular. Tur tematik olduğundan, sırf biznes turların aparılma qaydaları, xarici turistlərlə davranma xüsusiyyətləri və digər vacib xarakteristikalar haqqında dərs keçirildi.

Tur müddətində tələbələrə müəllimlər tərəfindən İçərişəhərin tarixi, infrastrukturu, habelə, Qoşa Qala qapıları, Şirvanşahlar sarayı, Karvansaray, Qız Qalası, İçərişəhər Cümə məscidi, Məhəmməd məscidi və bir çox digər tarixi və turistik yerlər haqqında məlumat verildi. Tələbələr Miniatür Kitab Muzeyi, bir neçə rəsm qalereyası və emalatxanasında da oldular. Həmçinin, turun ikinci hissəsində onlar Dənizkənarı Bulvar ərazisində yerləşən Xalça muzeyinə və bir çox digər yerlərə baş çəkdilər.

Turun sonunda müzakirələr aparıldı.

On December 1, 2019, students majoring in tourism and hotel management at Khazar University School of Economics and Management, took a Baku tour under the leadership of teachers of the Department of Economics and Management - Kamran Behbudov and Kahraman Yusupov. The tour being thematic, included lesson on how to conduct business tours, how to interact with foreign tourists, and other important features.

During the tour, teachers provided students with information about the history, infrastructure of Icheri Sheher, as well as the Gosha Qala Doors, Shirvanshahs Palace, Karvansaray, Maiden Tower, Icheri Sheher Juma Mosque, Mahammed Mosque and many other historical and tourist attractions. Students visited the Miniature Book Museum and several art galleries and workshops. Also, during the second part of the tour, students visited the Carpet Museum and many other places on the Boulevard.

At the end of the tour, discussions took place.

# PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI AZƏRBAYCAN RADİOSUNUN VERİLİŞİNDƏ

# MEMBER OF PSYCHOLOGY DEPARTMENT WAS GUEST OF AZERBAİJAN RADİO

2019-cu il dekabrın 2-də Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova Azərbaycan Radiosunda (105FM) aparıcı Vüsalə Rafiqqızının qonağı oldu. O, qadınlarda depressiya əlamətləri və mübarizə yolları ilə əlaqədar ətraflı müzakirələr apararaq, cəmiyyətdə maariflənmənin önəmi üzərində durdu. M.Kərimova Xəzər Universitetinin Psixologiya departamentinin fəaliyyətindən danışaraq, tələbələrə və xalqa açıq seminarlarda bu mövzulara həssaslıqla yanaşdıqlarından bəhs etdi. O, eyni zamanda, universitetin bu mövzuya diqqətini qeyd edərək, tələbələrə psixoloji xidmətin zəruriliyini vurğuladı.

On December 2, 2019, Melek Kerimova, the Coordinator of the Khazar University Psychology Department, Director of the Khazar Psychological Service Center, was the guest of Vusala Rafiggizi, the presenter at Azerbaijan Radio (105FM). She focused on the importance of education in the community, discussing in detail the symptoms of depression in women and ways of coping with them. Speaking about the activities of Khazar University's Psychology Department, she spoke about the sensitivity of these topics to students and the public. She also indicated University's attention to this field and emphasized the need for psychological services for students.

## "DÜNYA" JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" məktəbinin nəşri olan "Dünya" jurnalının yeni nömrəsi (sentyabr-oktyabr, 32 - ci nömrə) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.

## NEW ISSUE OF "DUNYA" JOURNAL PUBLISHED

New issue of the "Dunya" Journal (September-October, number 32), published by "Dunya" School of Khazar University, has been published by Khazar University Press.



# "BEYNƏLXALQ KARYERA FESTİVALI-2020"-YƏ HƏSR OLUNMUŞ GÖRÜŞ

# MEETING DEDICATED TO "INTERNATIONAL CAREER FESTIVAL-2020"

2019-cu il dekabrın 4-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə Roma BMT Modelinin 2020 Silahsızlandırma və Beynəlxalq Təhlükəsizlik Komitəsinin direktoru Firuz Süleymanovla tələbələrin beynəlxalq proqramlarda iştirakını təmin etmək məqsədilə "International Careers Festival 2020" ilə əlaqədar görüş keçirildi.

Görüşü Karyera Mərkəzinin koordinatoru Fəxrəddin Abdullayev açaraq, "Birləşmiş Millətlər Təşkilatı–Roma Modeli"nin önəmini və bu proqramın tələbələrin gələcək karyeralarında hansı imkanları açacağı haqqında məlumat verdi.

Sonra komitə direktoru Firuz Süleymanov proqram haqqında geniş məlumat verdi. Belə ki, miqyasına görə dünyanın ən böyük 3-cü BMT modeli olan Roma "International Careers Festival 2020" beynəlxalq proqramına Azərbaycan üzrə Xəzər Universitetinin təmsilçilik etməsini xüsusi vurğulayaraq, tələbələrin bu imkanı maksimum dəyərləndirməsini qeyd etdi. 4 mərhələdən ibarət olan proqram 2020-ci il martın 7-dən 10-dək keçiriləcək və bu mərhələlərin nəticələrinə görə tələbələr dünyanın aparıcı şirkətlərinin karyera imkanlarından da yararlana biləcəklər.

Görüş tələbələrin suallarının cavablandırılması ilə başa çatdı.

On December 4, 2019, the Khazar University Career Center organized the "International Careers Festival 2020" with the Director of the Rome UN 2020 Disarmament and International Security Committee, Firuz Suleymanov, to ensure that our students participate in international programs. The meeting was opened by the Career Center Coordinator Fakhraddin Abdullayev, who spoke about the importance of the "United Nations - Rome Model" and the opportunities this program will open up in their future careers. Further, Firuz Suleymanov, Committee Director of the program, continued his speech and provided detailed information about the program. Thus, he emphasized Khazar University's commitment to represent Azerbaijan in the international program of Rome "International Careers Festival 2020", which is the third biggest UN model in the world, noting that students should avail themselves of this opportunity. The 4-step program will be held from March 7 to 10, 2020, and by the end of this year, students will be able to benefit from the career opportunities of the world's leading companies.

The meeting was finalized with answers to the students' questions.

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜƏLLİMİNİN ELMİ REDAKTORLUĞU İLƏ KİTAB ÇAP OLUNUB

# BOOK PUBLISHED UNDER THE EDITORSHIP OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT'S TEACHER

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi, fəlsəfə doktoru Anar Cəfərovun elmi redaktorluğu ilə XX əsrin məşhur almandilli filosofu, analitik fəlsəfənin yaradıcılarından biri Ludviq Vitqenştayn`ın "Tractatus Logico-Philosophicus" əsəri Azərbaycan dilində ("Məntiqi-fəlsəfi traktat") nəşr olunub. Əsəri almancadan Azərbaycan dilinə Tinay Muşdiyeva tərcümə etmişdir.

Əlavə məlumatı bu link vasitəsilə əldə etmək olar:

***https://gramho.com/media/2191484418895754543***

*Tractatus Logico-Philosophicus*, a work by Ludwig Wittgenstein, the prominent German Language philosopher of XX century and a founder of Analytic Philosophy, has been published in Azerbaijani language, under the editorship of Dr. Anar Jafarov, a full-time lecturer of the Department of Political Sciences and Philosophy at Khazar University. The work was translated from German into Azerbaijani by Tinay Mushdiyeva.

More information can be found at this link:

***https://gramho.com/media/2191484418895754543***

## "TUR ZAMANI XARİCİ TURİSTLƏRLƏ DAVRANMA QAYDALARI VƏ XARAKTERİSTİKALARI" ADLI DƏRS KEÇİRİLDİ

## LESSON ON "RULES AND MODELS OF BEHAVIOR WITH FOREIGN TOURISTS DURING THE TOUR"

2019-cu ilin dekabr ayında turizm üzrə tədbirlər planına əsasən Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələri üçün həmin departamentin müəllimləri Kamran Behbudov və Qəhrəman Yusupov tərəfindən "Tour guiding & tour operating" fənləri üzrə "Tur zamanı xarici turistlərlə davranma qaydaları və xarakteristikaları" adlı dərs keçirildi.

Dekabrın 5-də Bakı turu zamanı Birləşmiş Ərəb Əmirliyindən Azərbaycanda qonaq olan turistlərlə tanışlıq oldu və onlar üçün Bakı üzrə tematik tur keçirildi. Tanışlığın davamı olaraq, ərəb turistlər Məhəmməd Əli, Əhəd Əli, İmran Əli və Aylin Əli qonaq qismində Xəzər Universitetində turizm üzrə keçirilən dərslərdə iştirak edərək, BƏƏ-nin və Hindistanın turizm potensialı haqqında hazırladıqları təqdimatlarla çıxış etdilər. Görüş müzakirələrlə başa çatdı.

According to the events plan in Tourism field, envisaged for the month of December, students from Khazar University School of Economics and Management, majoring in tourism and hospitality management, took part in the lessons entitled "Rules and Models of Behavior with Foreign Tourists During the Tour" within the "Tour Guiding & Tour Operations" course, taught by the Department's teachers Kamran Behbudov and Kahraman Yusupov.

On December 5, 2019, during the "Baku Tour" within the framework of the Master Class, the introduction session of the tourists from the United Arab Emirates visiting Azerbaijan took place and thematic tour was organized for them around Baku. As part of the introduction, Arab tourists Mohammed Ali, Akhad Ali, Imran Ali and Aylin Ali attended the lectures on tourism at Khazar University and made presentations on tourism potential of the UAE and India.

## RİYAZİYYAT DEPARTAMENTİNİN ƏMƏKDAŞININ HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ ÇAP OLUNUB

## ARTICLE CO-AUTHORED BY MEMBER OF MATHEMATICS DEPARTMENT PUBLISHED

Xəzər Universitetinin Riyaziyyat departamenti universitet adından nüfuzlu elmi jurnallarda məqalə çapı istiqamətində fəaliyyətini davam etdirir. Riyaziyyat departamentinin müəllimi Lalə Atamovanın həmmüəlifi olduğu (Aynur Səfərova ilə birlikdə) "Inverse scattering problem for a hyperbolic system of first order equations on a semi-axis on a first approximation" (Yarımoxda birtərtibli hiperbolik tənliklər sistemi üçün birinci yaxınlaşmaya görə tərs səpilmə məsələsi) adlı məqalə "Transactions of ANAS" jurnalında çap olunmuşdur (Cild 39, № 4, 2019). Qeyd edək ki, bu jurnal Scopus bazasında indekslənmişdir

Məqaləni bu link vasitəsilə oxumaq olar:
*http://trans.imm.az/volumes/39-4/*

Khazar University Department of Mathematics continues its work on publishing articles in the reputable journals on behalf of the University. An article co-authored by Lala Atamova, teacher at the Mathematics Department, (co-author Aynur Safarova), entitled "Inverse Scattering Problem for a Hyperbolic System of First Order Equations on a Semi-axis on a First Approximation" has been published in "Transactions of ANAS" Journal (Volume 39, issue 4, 2019). It is worth noting that this journal is indexed in the Scopus database.

The article can be read at the following link:
*http://trans.imm.az/volumes/39-4/*





## "KPMG AZERBAIJAN" ŞİRKƏTİNİN ƏMƏKDAŞLARI TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜLƏR

## "KPMG AZERBAIJAN" STAFF MET WITH STUDENTS

2019-cu il dekabrın 6-da Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə universitetin İqtisadiyyat və menecment fakültəsinin 3-cü və 4-cü kurs tələbələrinin "KPMG Azerbaijan" şirkəti ilə görüşü keçirildi.

Şirkətin İnsan resursları üzrə koordinatoru Aydan Bədəlova tələbələrə "KPMG" şirkəti və vakansiyalar haqqında məlumat verdi. Şirkətin audit üzrə baş meneceri Mələk Abbaslı (Xəzər Universitetinin məzunu) potensial işçilər və təcrübəçilərdən gözlənilən dəyərləri qeyd etdi.

Təqdimatın sonunda tələbələrin sualları cavablandırıldı və "KPMG"-nin potensial işçisi olmaq istəyən tələbələr şirkətin baş ofisində imtahan vermək üçün qeydə alındılar.

On December 6, 2019, Khazar University Career Center organized a meeting of the "KPMG Azerbaijan" company with 3rd and 4th year students from the School of Economics and Management.

Aydan Badalova, Company's human resources coordinator, provided students with information about "KPMG" company and about open vacancies. Melek Abbasly (Khazar University alumnus), Chief Audit Officer of the Company, highlighted the capacities, expected from the potential employees and practitioners.

At the end of the presentation, students' questions were answered and students who wanted to become potential "KPMG" employees were registered for an exam at the company's headquarters.









# XƏZƏR UNİVERSİTETİ İLƏ IPBES-İN BİRGƏ BEYNƏLXALQ TƏDBİRİ



2019-cu il dekabrın 5-6-da Xəzər Universiteti və BMT-nin Biomüxtəliflik və Ekosistem Servisləri üzrə Beynəlxalq Panelinin (International Panel on Biodiversity and Ecosystem Services- IPBES) birgə təşkilatçılığı ilə universitetin Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində "Şərqi Avropa Tanıtma/Milli Əlaqələndiricilərinin Dialoqu" (Eastern Europe Uptake & Outreach Event/National Focal Point Dialogue Meeting) adlı beynəlxalq konfrans keçirildi.

Tədbiri Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova açaraq iştirakçıları salamladı, tədbirin əhəmiyyətindən danışdı və konfransa uğurlu iş arzuladı.

IPBES-in nümayəndəsi İngunn Storro IPBES iştirakçıları üçün üstünlüklər, əsas fəaliyyətlər və imkanlar haqqında danışdı.

Sonra Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi Rəşad Allahverdiyev çıxış etdilər.

*(Ardı səh.12-də)*









# KHAZAR UNIVERSITY AND IPBES JOINT EVENT

On December 5-6, 2019 International Conference entitled "Eastern Europe Uptake & Outreach Event/National Focal Point Dialogue Meeting", was jointly organized by Khazar University and the United Nations International Panel on Biodiversity and Ecosystem Services (IPBES) at University's Fikrat Amirov Conference-Concert Center.

The event was opened by Associate Professor Irada Khalilova, Rector of Khazar University, who welcomed the participants, talked about the importance of the event and wished the Conference success.

Ingunn Storro, IPBES representative, spoke about the advantages, key activities and opportunities for IPBES participants.

Following that Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, and Rashad Allahverdiyev, Representative of the Ministry of Ecology and Natural Resources, delivered speeches.

(*To be continued page 12*)











Konfransda 25 ölkənin, o cümlədən, Norveç, Almaniya, Türkiyə, Bolqarıstan, Belçika, Moldova, Belarus, Slovakiya, Rusiya, Bosniya və Herseqovina, Serbiya, Xorvatiya, Azərbaycan, Macarıstan, Şimali Makedoniya, Estoniya, Özbəkistan, Qazaxıstan, Gürcüstan, Rumıniya, Çexiya və Niderlandın milli əlaqələndiriciləri və ekspertləri iştirak edirdilər. Tədbirdə mütəxəssislərin məruzələri dinlənildi, müzakirələr aparıldı.

Tədbirdə universitetin Kamera orkestri (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) konsert proqramı ilə çıxış etdi.

Dekabrın 5-də Xəzər Universitetinin Buzovnadakı Konfrans-İstirahət Mərkəzində tədbir iştirakçıları üçün ziyafət təşkil olundu.

Tədbir dünyanın 20-dən çox informasiya vasitələri tərəfindən işıqlandırılmışdır.

The event was attended by national coordinators and experts from 25 countries, including Norway, Germany, Turkey, Bulgaria, Belgium, Moldova, Belarus, Slovakia, Russia, Bosnia and Herzegovina, Serbia, Croatia, Azerbaijan, Hungary, North Macedonia, Estonia, Uzbekistan, Kazakhstan, Georgia, Romania, Czech Republic and the Netherlands. During the event expert's reports were listened out and discussions were held.

At the event, the University's Chamber Orchestra (Artistic Director - Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department, honored teacher, pianist) performed a concert program.

On December 5, a reception was organized for the Conference participants at Khazar University Conference and Leisure Center in Buzovna.

The event was covered by more than 20 media outlets worldwide.








GLOBAL FOREST WATCH PRO
FOREST WATCH
GLOBAL FOREST WATCH















# FƏLƏSTİN SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# PALESTINIAN AMBASSADOR AT KHAZAR UNIVESITY

2019-cu il dekabrın 6-da Beynəlxalq Fələstin Xalqı ilə Həmrəylik Günü münasibətilə Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamenti Fələstinin Azərbaycandakı səfiri Nasser Abdel Karem ilə "Fələstində və Yaxın Şərqdə sülh, sabitlik və təhlükəsizlik" mövzusunda seminar təşkil etdi.

Tələbələrə Fələstin münaqişəsinin tarixi, sülh prosesindəki mövcud inkişaflar və iki dövlətli həll yolundakı çətinliklər barədə məlumat verildi. Seminar sual-cavab sessiyası ilə davam etdi.

Seminarda, BMT-nin Qlobal Kommunikasiyalar Departamentinin Azərbaycan təmsilçisi Dr. Rəşad Hüseynov da iştirak edərək, BMT Baş katibi António Guterresin Fələstin xalqı ilə Həmrəylik Günü münasibətilə mesajını oxudu.

On December 6, 2019, on the occasion of the International Day of Solidarity with the Palestinian People, the Political Science & Philosophy Department organized a seminar with H.E. Nasser Abdel Karem, the Ambassador of Palestine to Azerbaijan, entitled "The Peace, Stability, and Security in Palestine and the Middle East".

The students were informed about the historical background of the Palestinian conflict, current developments in the peace process, and challenges to a two-state solution. The seminar was followed by a Q&A session.

The seminar was also attended by the United Nations National Information Officer of the Department of Global Communications, Dr. Rashad Huseynov, who read the UN Secretary General António Guterres' message on International Day of Solidarity with the Palestinian People.










## "MALİYYƏ BAZARLARINDA PRAKTİK FƏALİYYƏT" MÖVZUSUNDA TƏLİM

## WORKSHOP ON "FINANCIAL MARKET OPERATIONS"

2019-cu il dekabrın 6-da Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə "Maliyyə bazarlarında praktik fəaliyyət" mövzusunda təlim keçirildi. Təlimi "İnvest-Az İnvestisiya Şirkəti"nin mütəxəssisləri aparırdılar. Təlimin məqsədi maliyyə bazarlarına marağı artırmaq, tələbələrin maliyyə biliklərini genişləndirmək və onlara bu sahədə mövcud mütərəqqi praktik qabiliyyətlərin aşılanması idi.

Təlim zamanı birja və onun növləri haqqında məlumat verildi. Bundan başqa, maliyyə aktivlərindən mənfəət əldə etmənin metodları, marjinal ticarət və spesifik məsələlər ətraflı izah olundu. Əlavə olaraq, maliyyə sahəsində geniş istifadə olunan kompüter proqramlarının mənimsənilməsi praktik məşğələlərlə həyata keçirildi. Maliyyə bazarlarına təsir edən sosial-iqtisadi və siyasi amillər geniş müzakirə olundu.

On December 6, 2019, School of Economics and Management successfully realized a workshop on the "Financial Market Operations". The workshop was led by the experts from "Invest-Az Investment Company" Ltd. The aim of the event was to increase awareness about financial markets, to broaden students' knowledge and to equip students with practical skills.

During the workshop, insightful information was provided on Stock Exchange Markets and its different types. Additionally, specific topics such as the method of gaining profit using financial assets, marginal trade and credit shoulder was explained. Furthermore, widely used computer software that is dominant in the financial sector was taught to students with the practical exercises. Trainers also discussed socio-economic and political factors that affect financial markets.







# MEKSİKA SƏFİRİ İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNDƏ MÜHAZİRƏ OXUDU

# AMBASSADOR OF UNITED MEXICAN STATES DELIVERS LECTURE AT SCHOOL OF ECONOMICS AND MANAGEMENT

2019-cu il dekabrın 9-da Meksika Birləşmiş Ştatlarının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Rodriqo Labardini Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin dəvəti ilə universitetdə qonaq oldu. Görüş zamanı Xəzər Universiteti ilə Meksika universitetləri arasında əməkdaşlıq imkanları Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova və İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədovla müzakirə edildi.

Eyni zamanda, cənab Rodrigo Labardini İqtisadiyyat və menecment fakültəsinin tələbələri ilə görüşdü və Meksikanın iqtisadiyyatı və turizm sənayesi, Azərbaycan ilə Meksika arasında ikitərəfli ticarət əlaqələri haqqında çox maraqlı mühazirə söylədi və tələbələrin suallarını cavablandırdı.

Ölkə mediası bu barədə xəbər yaymışdır:

*https://demokratikmusavat.com/article/en/193748*

*https://metbuat.az/news/1306064/meksika-sefiri-xezer-universitetinde-olub.html*

*https://az.trend.az/azerbaijan/society/3161201.html*

*http://son.az/az/news/580164/meksika-sefiri-xezer-universitetinde-olub*

*https://apa.az/az/xarici_siyaset/Sfir:-%22Bu-il-Meksika-il-Azrbaycan-arasinda-ikitrfli-ticart-dovriyysi-428-milyon-dollara-catib%22-562695* və s.

On December 9th, 2019, H.E. Mr. Rodrigo Labardini, Extraordinary and Plenipotentiary Ambassador of the United Mexican States to Azerbaijan, visited Khazar University upon the invitation of the School of Economics and Management. During the visit, the possibilities of cooperation between Khazar University and universities in Mexico were discussed with Associate Professor Irada Khalilova, the Rector of Khazar University, and Dr. Jeyhun Mammadov, the Dean of the School of Economics and Management.

In the meantime, H.E. Mr. Rodrigo Labardini met with the students of the School of Economics and Management, and delivered a very interesting lecture on the economy and the tourism industry of Mexico and bilateral trade relations between Azerbaijan and Mexico and answered the students' questions.

Country's media reported on this:

*https://demokratikmusavat.com/article/en/193748*

*https://metbuat.az/news/1306064/meksika-sefiri-xezer-universitetinde-olub.html*

*https://az.trend.az/azerbaijan/society/3161201.html*

*http://son.az/az/news/580164/meksika-sefiri-xezer-universitetinde-olub*

*https://apa.az/az/xarici_siyaset/Sfir:-%22Bu-il-Meksika-il-Azrbaycan-arasinda-ikitrfli-ticart-dovriyysi-428-milyon-dollara-catib%22-562695* ets.














# "P&G CAUCASUS" ŞİRKƏTİ İLƏ GÖRÜŞ

2019-cu il dekabrın 10-da Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə İqtisadiyyat və menecment fakültəsinin tələbələrinin "P&G Caucasus" şirkəti ilə görüşü keçirildi. Şirkətin əməkdaşı. Ruslan İbrahimov tələbələrə 3 aylıq yay təcrübə proqramı haqqında ətraflı məlumat verdi. Sonda tələbələrin sualları cavablandırıldı.

# "P&G CAUCASUS" COMPANY'S MEETING

On December 10, 2019, "P&G Caucasus" Company's meeting with the students from the School of Economics and Management, took place, upon the arrangements made by Khazar University Career Center. Ruslan Ibrahimov, Company's employee, provided students with an extensive information on 3 months internship program. At the end of the event, students' questions were answered.

# XƏZƏR UNİVERSİTETİNİN NƏŞRİYYATINDA ÇAP OLUNMUŞ KİTAB HAQQINDA XƏBƏRLƏR

2019-cu il dekabrın 12-də *avanqard.net* və *525.az* xəbər portallarında Xəzər Universitetinin Nəşriyyatında filologiya üzrə fəlsəfə doktoru, dosent Tamilla Əliyevanın "Qafqaz müharibəsi rus ədəbiyyatında" adlı monoqrafiyasının çapdan çıxması haqqında xəbər dərc edilmişdir:

*http://www.avanqard.net/index.php?action=static_detail&static_id=59513*
*http://525.az/site/?name=xeber&news_id=130879#gsc.tab=0*

# NEWS ABOUT BOOK PUBLISHED BY KHAZAR UNIVERSITY PRESS

On December 12, 2019, *avanqard.net* and *525.az* news portals reported that Khazar University Press published monograph by Tamilla Aliyeva, Doctor of Philosophy in Philology, entitled "Caucasus War in Russian Literature":

*http://www.avanqard.net/index.php?action=static_detail&static_id=59513*
*http://525.az/site/?name=xeber&news_id=130879#gsc.tab=0*





# XƏZƏR UNİVERSİTETİNDƏ AQRAR İNKİŞAF KÖNÜLLÜLƏRİ TƏŞKİLATININ TƏQDİMATI

# PRESENTATION OF "AGRARIAN DEVELOPMENT VOLUNTEERS" ORGANIZATION AT KHAZAR UNIVERSITY

2019-cu il dekabrın 11-də Xəzər Universitetində Aqrar İnkişaf Könüllüləri Təşkilatının (AİKT) təqdimatı oldu. Tədbirdə Həyat elmləri departamentinin müəllimlərindən Asəf Ömərov, Cavid Ocaqi, PhD tələbələrdən Mujan Serpuş, Təbiət elmləri və mühəndislik fakültəsinin, İqtisadiyyat və menecment fakültəsinin tələbələri iştirak edirdilər.

Tədbiri Həyat elmləri departamentinin müdiri Asəf Ömərov açaraq, gənclərin sosial həyatda rolundan, dövlətçilikdə əhəmiyyətindən, karyera planlamasında sosial əlaqələrin vacibliyindən danışdı. AİKT-nin rəhbəri Sarvan Cəbrayılzadə aqrar sahədə aparılan islahatlardan, əldə olunmuş uğurlardan danışmaqla bərabər, könüllülük fəaliyyətinin sahələri və istiqamətləri, bu təşkilatda gənclərin rolu, təşkilatın missiyası, strateji baxışları, həmçinin, təşkilatın həyata keçirdiyi layihələr haqqında məlumat verdi. Tədbirin sonunda bir qrup tələbə təşkilata üzv oldu.

On December 11, 2019, the presentation of the "Agrarian Development Volunteers" Organization was held at Khazar University. The event was attended by teachers from the Department of Life Sciences - Asaf Omarov, Javid Ojagi; PhD student Moojan Serpoush and students from the School of Sciences and Engineering, School of Economics and Management.

Opening the event, Asaf Omarov, Head of the Department of Life Sciences, spoke about the role of youth in social life and their importance in statehood, and the significance of social relations in career planning. Sarvan Jabrayilzade, Head of the Organization spoke about the agrarian reforms and achievements, and moreover provided information about the areas and directions of volunteer activity, the role of youth in this organization, its mission, the strategic vision of the organization, as well as projects implemented by the organization. At the end of the event a group of students became members of the organization.



# XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ İRANDA





2019-cu il dekabrın 8-11-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amani İran İslam Respublikasında səfərdə oldular.

Dekabrın 8-də professor Hamlet İsaxanlı və Dr. Bahman Amani yolüstü Naxçıvan Universitetində universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Dr. Hüseyn Bağırsoylu ilə görüşdülər. Dr. Hüseyn Bağırsoylu qonaqları səmimi qarşılayaraq, universitet haqqında məlumat verdi. Görüşdə iki universitet arasında əməkdaşlıq məsələləri müzakirə olundu.

Həmin gün İranın Culfa şəhərinə gələn Xəzər Universitetinin nümayəndələri Tehran Universiteti və Təbriz Universitetinin buradakı Azad İqtisadi Zonada yerləşən beynəlxalq kampuslarında dekanlar, departament müdirləri və əməkdaşlarla görüşdülər.

Dekabrın 9-da professor Hamlet İsaxanlı və Dr. Bahman Amani Naxçıvan Muxtar Respublikası ilə sərhəddə yerləşən Araz Azad İqtisadi Zonasında onun baş müdiri Mohsen Nəriman və təhsil üzrə yardımçısı Yusif Dadaşzadə ilə görüşdülər. Mohsen Nəriman professor Hamlet İsaxanlıya hədiyyə təqdim etdi. Qeyd edək ki, İran qanunvericiliyinə əsasən universitetlər azad iqtisadi zonalarda kampus açaraq, ödənişli qayda ilə tələbə cəlb edə bilərlər. Xəzər Universitetinin nümayəndələri həm Culfa, həm də Araz azad iqtisadi zonalarındakı görüşlərdə Xəzər Universitetinin də bu imkandan istfadə etmək yolları müzakirə olundu.

*(Ardı səh.22-də)*



# REPRESENTATIVES OF KHAZAR UNIVERSITY IN IRAN





On December 8-11, 2019 Professor Hamlet Isakhanli, the Founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees and Dr. Bahman Amani, Head of English Language and Literature Department visited Islamic Republic of Iran.

On December 8, Professor Hamlet Isakhanli and Dr. Bahman Amani en route visited Dr. Hussein Bagirsoylu, Vice-Rector for Academic Affairs and Education of Nakhchivan University. Dr. Hussein Bagirsoylu warmly welcomed the guests and gave information about the University. The parties discussed issues of cooperation between the two universities.

On the same day Khazar University representatives arrived in Julfa city of Iran and met with deans, department heads, and staff at Tehran University and Tabriz University's international campus located at the Free Economic Zone.

On December 9, Professor Hamlet Isakhanli and Dr. Bahman Amani met with Mohsen Nariman, the Head of Araz Free Economic Zone, located on the border with Nakhchivan Autonomous Republic and Yusif Dadashzadeh, his assistant on education. Mohsen Nariman presented a gift to Professor Hamlet Isakhanli. Under the Iranian law, universities can open a campus in free economic zones and attract students on a paid basis. Representatives of Khazar University discussed the opportunities for Khazar University to use this opportunity at both Julfa and Araz Free Economic Zones.

*(To be continued page 23)*





Həmin gün professor Hamlet İsaxanlı və Dr. Bahman Amani Xoy şəhərində Şəms Təbrizinin məzarını ziyarət etdilər və Şəms Təbrizi Dərnəyinin rəhbəri Mürtəza Bərin və dərnək üzvləri ilə görüşdülər. Professor Hamlet İsaxanlı Xəzər Universitetində Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar Mərkəzinin (MƏFAM) yaradıldığı və fəaliyyətə başladığı haqqında məlumat verərək, dərnəklə mərkəz arasında əlaqələr qurulmasının məqsədəuyğun olduğunu bildirdi. Mürtəza Bərin də təklifə tərəfdar olduğunu söylədi.

Axşam Təbrizə çatan Xəzər Universitetinin nümayəndələri və Təbrizdə səfərdə olan Türkiyənin Ərzurum Universitetinin rektoru Bülənt Çaxmaqın şərəfinə Təbriz Universitetinin rektoru professor Rza Məcidi tərəfindən şam yeməyi verildi. Söhbət əsnasında professor Hamlet İsaxanlı Azərbaycan, İran və Türkiyə universitetləri arasında "üçbucaq iş birliyi" qurmaq haqqında fikirlərini söylədi və bu, razılıqla qarşılandı.

Dekabrın 10-da Xəzər Universitetinin nümayəndələri Təbriz Universitetində rektorluğun geniş iclasında iştirak etdilər. İkitərəfli əlaqələr imkanları ətraflı müzakirə olundu və Anlaşma memorandumu imzalandı, hədiyyələr təqdim olundu.

Sonra professor Hamlet İsaxanlı və Dr. Bahman Amani universitetin Mühəndislik və Fizika-astronomiya fakültələrində dekanlar, departament müdirləri, müəllim və tələbələrlə görüşüb, fakültələrin işi ilə tanış oldular, müəllim və tələbə mübadiləsi haqqında müzakirələr apardılar.

*(Ardı səh.24-də)*





Professor Hamlet Isakhanli and Dr. Bahman Amani visited the tomb of Shams Tabrizi in Khoy and met with the Head of the Shams Tabrizi Association, Murtaza Barin and members of the Association. Professor Hamlet Isakhanli provided information about the establishment and launch of the Mawlana Literary and Philosophical Research Center (MAFAM) at Khazar University, and said that it would be expedient to establish relations with the Association. Murtaza Barin also indicated that he supports the proposal.

Professor Reza Majidi, Rector of Tabriz University, organized dinner in honor of the representatives of Khazar University, who reached Tabriz in the evening of the same day, and the Rector of the University of Erzurum in Turkey, Bulent Chahmak. During the conversation, Professor Hamlet Isakhanli expressed his views on the establishment of a "triangular business partnership" between the universities of Azerbaijan, Iran and Turkey, which was met with approval.

On December 10, representatives of Khazar University took part at a wide meeting of the rectorate at Tabriz University. The possibilities of bilateral relations were discussed in detail and Memorandum of Understanding was signed, gifts were presented.

Then Professor Hamlet Isakhanli and Dr. Bahman Amani met with deans, heads of department, teachers and students at the Faculty of Engineering and Physics and Astronomy, got acquainted with the work of the faculties, and held discussions on teacher and student exchange.

*(To be continued page 25)*











Həmin gün Xəzər Universitetinin nümayəndələri Təbriz Universitetində Araşdırma həftəsi münasibətilə Şərqi Azərbaycan valisi Məhəmməd Rza Purməhəmmədinin iştirak etdiyi tədbirə qatıldılar və professor Hamlet İsaxanlı çıxış etdi.

Dekabrın 11-də Xəzər Universitetinin nümayəndələri Marağa şəhərinə səfər etdilər. Yolüstü evlərinin qayalar içində tikildiyi Kənduvan kəndində və Nəsirəddin Tusi rəsədxanasında da oldular.

Marağa Universitetində rektor Məhəmməd Əli Lutfullahi ilə görüşdə iki universitet arasında əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı və memorandum imzalanması qərara alındı.

Marağada professor Hamlet İsaxanlı Mövlana Cəlaləddin Ruminin "Məsnəvi"sini farscadan Azərbaycan dilinə tərcümə etmiş şair Heydər Abbasi ilə onun evində görüşdü və səmimi söhbətlə yanaşı onlar bir-birlərinə öz şeirlərini də oxudular. Professor Hamlet İsaxanlı, həmçinin, şair Marağalı Kərimi ilə də görüşdü.

*(Ardı səh.26-da)*





On the same day, the representatives of Khazar University attended the event on the occasion of the Research Week at Tabriz University, attended by Governor of East Azerbaijan Mohammad Reza Purmahmadli, where Professor Hamlet Isakhanli gave a speech.

On December 11, Khazar University delegation visited Maragha. They en route visited the village of Kenduvan, where houses were built inside the rocks, and also the Observatory of Nasreddin Tusi.

At the meeting with the Rector Mohammad Ali Lutfullahi at Maragha University, the parties exchanged views on cooperation and it was agreed to sign a memorandum.

In Maragha, Professor Hamlet Isakhanli met with poet Heydar Abbasi, who translated Mawlana Jalaladdin Rumi's "Masnavi" from Persian into Azerbaijani, and they read their poems to each other. Professor Hamlet Isakhanli also met with the poet Maraghali Karimi.

(*To be continued page 26*)








Beləliklə, dörd günlük səfər zəngin təəssüratla başa çatdı.

Səfər haqqında Marağa və Təbriz universitetlərinin vebsaytlarında xəbərlər və fotolar yerləşdirilmişdir:

https://www.maragheh.ac.ir/News/759/%d8%a8%d8%a7%d8%b2%d8%af%db%8c%d8%af-%d8%a8%d9%86%db%8c%d8%a7%d9%86%da%af%d8%b0%d8%a7%d8%b1-%d9%88-%d8%b1%d8%a6%db%8c%d8%b3-%d8%af%d8%a7%d9%86%d8%b4%da%af%d8%a7%d9%87-%d8%ae%d8%b2%d8%b1-%d8%a7%d8%b2-%d8%af%d8%a7%d9%86%d8%b4%da%af%d8%a7%d9%87-%d9%85%d8%b1%d8%a7%d8%ba%d9%87.html

http://tabrizu.ac.ir/fa/news/10823/%D8%A7%D9%85%D8%B6%D8%A7%DB%8C-%D8%AA%D9%81%D8%A7%D9%87%D9%85-%D9%87%D9%85%DA%A9%D8%A7%D8%B1%DB%8C-%D8%AF%D8%A7%D9%86%D8%B4%DA%AF%D8%A7%D9%87-%D8%AA%D8%A8%D8%B1%DB%8C%D8%B2-%D9%88-%D8%AF%D8%A7%D9%86%D8%B4%DA%AF%D8%A7%D9%87-%D8%AE%D8%B2%D8%B1-%DA%A9%D8%B4%D9%88%D8%B1-%D8%A2%D8%B0%D8%B1%D8%A8%D8%A7%DB%8C%D8%AC%D8%A7%D9%86

The four-day trip ended with strong impressions.

News and photos covering the visited were posted on the websites of Maragha and Tabriz Universities:

*https://www.maragheh.ac.ir/News/759/%d8%a8%d8%a7%d8%b2%d8%af%db%8c%d8%af-%d8%a8%d9%86%db%8c%d8%a7%d9%86%da%af%d8%b0%d8%a7%d8%b1-%d9%88-%d8%b1%d8%a6%db%8c%d8%b3-%d8%af%d8%a7%d9%86%d8%b4%da%af%d8%a7%d9%87-%d8%ae%d8%b2%d8%b1-%d8%a7%d8%b2-%d8%af%d8%a7%d9%86%d8%b4%da%af%d8%a7%d9%87-%d9%85%d8%b1%d8%a7%d8%ba%d9%87.html*

*http://tabrizu.ac.ir/fa/news/10823/%D8%A7%D9%85%D8%B6%D8%A7%DB%8C-%D8%AA%D9%81%D8%A7%D9%87%D9%85-%D9%87%D9%85%DA%A9%D8%A7%D8%B1%DB%8C-%D8%AF%D8%A7%D9%86%D8%B4%DA%AF%D8%A7%D9%87-%D8%AA%D8%A8%D8%B1%DB%8C%D8%B2-%D9%88-%D8%AF%D8%A7%D9%86%D8%B4%DA%AF%D8%A7%D9%87-%D8%AE%D8%B2%D8%B1-%DA%A9%D8%B4%D9%88%D8%B1-%D8%A2%D8%B0%D8%B1%D8%A8%D8%A7%DB%8C%D8%AC%D8%A7%D9%86*



# ENACTUS BEYNƏLXALQ PROQRAMI BARƏSİNDƏ SEMİNAR

# SEMINAR ON INTERNATIONAL ENACTUS PROGRAM

2019-cu il dekabrın 11-də ENACTUS proqramının layihə direktoru Əziz Fələkzadə Xəzər Universitetində qonaq oldu. Əziz Fələkzadə İqtisadiyyat və menecment fakültəsinin tələbələri ilə görüşdü, müsabiqə haqqında məlumat verdi və tələbələrin layihə haqqında suallarını cavablandırdı.

Qeyd edək ki, ENACTUS dünyanın ən böyük təcrübə öyrənmə platformalarından biridir. Layihənin məqsədi lider sahibkarlar və sosial innovatorlar yetişdirərək, cəmiyyətə töhfə vermәkdir. Layihə çərçivəsində tələbələrin sahibkarlıqla bağlı ideyaları təkmilləşdirilərək, müsabiqədə iştirak üçün təqdim olunacaq. Seçilən layihələrin müəllifləri daha sonra Niderlandda keçiriləcək beynəlxalq yarışmada Xəzər Universitetini və Azərbaycanı təmsil etmək hüququ qazanacaqlar.

On December 11, 2019, Azim Falakzade, Program Director of ENACTUS, visited Khazar University. Mr. Falakzade met with students of the School of Economics and Management, provided the details of the competition and answered students' questions.

ENACTUS is one of the world's largest learning platforms. The goal of the project is to contribute to the community by educating leading entrepreneurs and social innovators. As part of the project, students' ideas on entrepreneurship will be improved and submitted to participate in the competition. The authors of the selected projects will then have the right to represent Khazar University and Azerbaijan in the international competition to be held in the Netherlands.





# "ATL TECH" ŞİRKƏTİ İLƏ GÖRÜŞ
# "ATL TECH" COMPANY'S MEETING

2019-cu il dekabrın 12-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə tələbələrin təcrübə proqramlarından bəhrələnmələri məqsədilə "ATL Tech" şirkəti ilə görüş keçirildi. Şirkətin İnsan resursları üzrə aparıcı mütəxəssisi Vəfa Şahgəldiyevaya ATL Academy layihəsi çərçivəsində tələbələrə 3 aylıq təcrübə imkanı verildiyini vurğuladı və hansı istiqamətlərdə fəaliyyət göstərəcəklərini qeyd etdi. Belə ki, təcrübə proqramında tələbələr ictimaiyyətlə əlaqələr, layihələrin idarə olunması və sosial iş istiqamətləri üzrə fəaliyyət göstərəcəklər.

ATL Academy hazırkı mərhələdə isə "Code School" daxilində Software Development Fundamentals, Backend və Frontend Software Development kimi sahələr üzrə kurslar təqdim edir. Növbəti mərhələlərdə kurslar İT sahəsinin müxtəlif istiqamətlərini əhatə edəcək və dərslər İT sahəsində geniş təcrübəyə malik mütəxəssislər tərəfindən aparılaraq, tələbələrə nəzəri biliklər ilə yanaşı, həm də praktiki biliklər öyrədiləcək. Eyni zamnda ATL-də vakansiyalar haqqında da məlumat verən Vəfa Şahgəldiyeva sonda tələbələrin suallarını cavablandırdı.

AZƏRTAC və *mektebgushesi.az* tədbir haqqında xəbər yaymışlar:

*https://azertag.az/xeber/Xezer_Universitetinde_ATL_Tech_sirketinin_numayendeleri_ile_gorus-1367395*

*https://mektebgushesi.az/2019/12/15/x%c9%99z%c9%99r-universitetind%c9%99-atl-tech-sirk%c9%99tinin-numay%c9%99nd%c9%99l%c9%99ri-il%c9%99-gorus/*

On December 12, 2019, a meeting with "ATL Tech" Company was organized by Khazar University Career Center to help students benefit from internship programs. Vafa Shahgeldiyeva, the Company's leading human resources specialist, announced that within the framework of the ATL Academy project, students are given 3 months internship opportunity and pointed out the areas in which they will work. Thus, students enrolled in the internship program will focus on public relations, project management and social work: ATL Academy at the current stage, offers courses within the "Code School" such as Software Development Fundamentals, Backend and Frontend Software Development. She indicated that in the subsequent stages the courses will cover different areas of IT, and that lessons being delivered by IT professionals with extensive experience, along with theoretical knowledge, will teach the practical knowledge as well. At the end of the presentation, Vafa Shahgeldiyeva, who provided information on the open vacancies in ATL, answered students' questions.

AZERTAC and *mektebgushesi.az* spread news about the event:

*https://azertag.az/xeber/Xezer_Universitetinde_ATL_Tech_sirketinin_numayendeleri_ile_gorus-1367395*

*https://mektebgushesi.az/2019/12/15/x%c9%99z%c9%99r-universitetind%c9%99-atl-tech-sirk%c9%99tinin-numay%c9%99nd%c9%99l%c9%99ri-il%c9%99-gorus/*




## AZƏRBAYCAN TURİZM BÜROSUNUN İCRAÇI DİREKTORU İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNDƏ MÜHAZİRƏ OXUDU

## EXECUTIVE DIRECTOR OF AZERBAIJAN TOURISM BOARD DELIVERS LECTURE AT SCHOOL OF ECONOMICS AND MANAGEMENT

2019-cu il dekabrın 12-də Azərbaycan Turizm Bürosunun icraçı direktoru Florian Sengstschmid Xəzər Universitetində oldu. Universitetin rektoru dosent İradə Xəlilova və İqtisadiyyat və menecment fakültəsinin dekanı dosent Ceyhun Məmmədovla Xəzər Universiteti ilə Azərbaycan Turizm Bürosu arasında əməkdaşlıq imkanları müzakirə edildi.

Eyni zamanda, Florian Sengstschmid, həmçinin büronun Turizm məhsulları və destinasiyanın inkişaf etdirilməsi departamentinin əməkdaşı Şərifə Həsənova və Dövlət Turizm Agentliyinin regional turizm və qoruqların inkişafı sektorunun əməkdaşı Könül Nuriyeva İqtisadiyyat və menecment fakültəsinin tələbələri ilə görüşdülər və "Azərbaycanda turizmin inkişafı və dövlət siyasəti" mövzusunda maraqlı mühazirə söylədilər. Görüş sual-cavab sessiyası ilə başa çatdı.

On December 12, 2019, Mr. Florian Sengstschmid, the Director of Azerbaijan Tourism Board, visited Khazar University upon the invitation of the School of Economics and Management. During the visit, the possibilities of cooperation between Khazar University and Azerbaijan Tourism Board were discussed with Associate Professor Irada Khalilova, the Rector of Khazar University, and Associate Professor, Jeyhun Mammadov, the Dean of the School of Economics and Management.

In the meantime, Mr. Florian Sengstschmid and also Ms. Sharifa Hasanova from the Department of Tourism Product & Destination Development of Azerbaijan Tourism Board, and Ms. Konul Nuriyeva staff member of the Regional Tourism Sector of the State Tourism Agency of the Republic of Azerbaijan met with the students of the School of Economics and Management, and delivered very interesting lectures on "Tourism Development and Public Policy in Azerbaijan". The meeting ended with a question-and-answer session.

# "MÖVLANA CƏLALƏDDİN RUMİ ŞEİRİNİN İRFANİ VƏ POETİK XÜSUSİYYƏTLƏRİ" MÖVZUSUNDA DƏYİRMİ MASA

# ROUNDTABLE ON "NUMINOUS AND POETIC CHARACTERISTICS IN MAWLANA JALALADDIN RUMI'S POETRY"

2019-cu il dekabrın 12-də Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamenti "Mövlana Cəlaləddin Rumi şeirinin irfani və poetik xüsusiyyətləri" mövzusunda dəyirmi masa keçirdi. Dəyirmi masanı giriş sözü ilə açan departamentin müdiri dosent Dilbər Zeynalova Yaxın Şərq bədii-estetik fikrinin, xüsusilə təsəvvüf ədəbiyyatının və ideyalarının inkişafında, mənəvi saflaşma düşüncəsinin yayılmasında, böyük mütəfəkkirlər - Nizami, Nəsimi, Füzuli, Şəms Təbrizi və Mövlana Cəlaləddin Ruminin misilsiz xidmətlərindən bəhs etdi.

Dəyirmi masanın əsas məruzəçisi - AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəzakət Məmmədli Mövlana Cəlaləddin Ruminin "Divani-Kəbir" adlı divanının poetikası, dərin fəlsəfi məzmunundan söhbət açdı. N.Məmmədli orijinal nümunələr əsasında divandakı şeirlərin oynaq vəzni, səmimiyyəti, yüksək pafosu haqqında aydın təsəvvür yaratdı. Əsərin "Divani-Şəms Təbrizi" adı ilə də məşhur olmasını qeyd edən Nəzakət Məmmədli Şəms Təbrizi şəxsiyyəti və onun Mövlananın həyatında oynadığı böyük roldan danışdı, əsərin nədən Şəmsin adı ilə bağlandığını izah etdi.

Sonra məruzəçi Mövlananın "Məsnəvi" əsərini yüksək əxlaqi və mənəvi keyfiyyətlər aşılayan, kamilliyə çatmağın yollarını açıqlayan, insan psixologiyasının ən incə nöqtələrinə toxunaraq, onu mənəvi inkişafa səsləyən bir əsər kimi səciyyələndirdi. N.Məmmədli əsərdəki müxtəlif hekayələrdən nümunələr gətirərək, onların simvolik mənalarını açdı, yüksək tərbiyəvi əhəmiyyəti barədə məlumat verdi.

Dəyirmi masada departamentin akademik heyəti ilə birlikdə tələbələr və universitet nəzdində fəaliyyət göstərən Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar Mərkəzinin tədqiqatçıları da iştirak edirdilər. Mərkəzin tədqiatçılarının mövzu ilə bağlı çıxış və təklifləri maraqla qarşılandı.

On December 12, 2019, Khazar University Department of Languages and Literature held a roundtable dedicated to the "Numinous and Poetic Characteristics of Mawlana Jalaladdin Rumi's Poetry". Opening the roundtable with her statement, Associate Professor Dilbar Zeynalova, Head of the Department of Languages and Literature, talked about the great contribution of the prominent thinkers like - Nizami, Nasimi, Fuzuli, Shams Tabrizi and Mawlana Jalaladdin Rumi in the development of Middle Eastern artistic and aesthetic ideas, especially Sufi literature and ideas, the spread of the idea of spiritual purification. The main speaker of the roundtable N. Mammadli, a senior scientist of the Institute of Manuscripts named after M. Fuzuli of the ANAS, delivered talk on the poetry of "Diwani-Kabir", its deep philosophical content. N. Mammadli created a clear description of the rhythm, sincerity, and high emotional content, based on the original examples. Indicating that the work is also known as "Diwani-Shams Tabrizi", Nazakat Mammadli, spoke about the personality of Shams Tabrizi, and his role in the life of Mawlana, and explained why the work was associated with Shams' name.

Later, the speaker characterized Mawlana's work "Masnavi" as a work being capable of instilling high moral and spiritual qualities, explaining the ways of achieving perfection, touching the finest points of human psychology and calling it to spiritual development. N. Mammadli brought up examples of different stories in the book, revealed their symbolic meanings and informed about their high educational value.

The roundtable was attended by the faculty members and students of the Department, as well as research fellows from the Mawlana Literary and Philosophical Center, which operates under the University. The speeches and suggestions of the Center's researchers were welcomed with interest.









# TURİBA UNİVERSİTETİNDƏ MEDİATS LAYİHƏSİNƏ AİD GÖRÜŞ

# MEDIATS PROJECT MEETING AT TURIBA UNIVERSITY

2019-cu il dekabrın 6-dan 13-dək Latviyanın Turiba Universitetində Niderland Biznes Akademiyasının koordinatoru olduğu "Mediasiya: öyrənmə və ictimai transformasiya" (MEDİATS) layihəsi çərçivəsində tərəfdaş universitetlərlə birlikdə idarəetmə görüşü və təlimlər keçirildi. Tədbirdə Xəzər Universitetindən Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayev, Təlim-tədris mərkəzinin direktoru Ülkər Bayramova, Psixologiya departamentinin koordinatoru Mələk Kərimova, Beynəlxalq əlaqələr ofisinin koordinatoru Lamiyə Pənahova, Psixologiya departamentinin müəllmi Nilufər Əlizadə iştirak edirdilər.

10 tərəfdaş universitetdən (Azərbaycan, Gürcüstan, Ukrayna, Hollandiya, İspaniya və Latviya) 40-a yaxın nümayəndə üçün praktik mediatorluq təlimləri keçirildi. Tədbir zamanı, həmçinin, layihənin idarəetmə görüşü keçirildi, indiyə qədər görülmüş işlər haqqında hesabatlar dinlənildi, layihədə qarşıda duran məsələlər, növbəti görüşlərin və təlimlərin vaxtı müzakirə edildi.

From December 6 to 13, 2019, Joint Management Meetings and Trainings with partner universities under the project "Mediation: Training and Society Transformation" (MEDIATS), coordinated by the Netherlands Business Academy, took place at the Turiba University in Latvia. The event was attended by Khazar University representatives Dr. Elmar Mustafayev, Director of Political Science and Philosophy Department, Ulker Bayramova, Director of Teaching and Learning Centre, Melek Karimova, Coordinator of the Psychology Department, Lamiya Panahova, Coordinator of the International Affairs Office, and Nilufar Alizade, instructor at the Psychology Department.

Practical mediation trainings were conducted for about 40 delegates from 10 partner universities (Azerbaijan, Georgia, Ukraine, Netherlands, Spain and Latvia). During the event, the project management meeting was held, reports on the work delivered were listened out, and future issues, dates of the upcoming project meetings and trainings were discussed.

## AZƏRBAYCANIN DAĞ YERLƏRİNDƏ BƏLƏDİYYƏ TORPAQLARININ İDARƏ EDİLMƏSİNƏ DAİR TƏLİMAT KİTABÇASI ÇAP OLUNUB




Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov "Azərbaycanın dağ yerlərində bələdiyyə torpaqlarının inteqrasiyalı idarə edilməsi" adlı təlimat kitabçası hazırlamışdır. Bu təlimat kitabçası Almaniya İqtisadi Əməkdaşlıq və İnkişaf üzrə Federal Nazirliyinin maliyyələşdirdiyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İsmayıllı Rayon İcra Hakimiyyəti və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birlikdə həyata keçirilən "Cənubi Qafqazda biomüxtəlifliyin inteqrasiyalı idarə edilməsi" (IBiS) proqramı çərçivəsində hazırlanmışdır və torpaqların inteqrasiyalı idarə olunması haqqında bilik və təcrübələri paylaşmaq məqsədi daşıyır.

Kitabça əsas etibarilə bələdiyyə nümayəndələri, torpaq idarəçiləri, dövlət rəsmiləri və dağlıq bölgələrdə torpaq idarəçiliyinə cəlb edilmiş tərəflər üçün nəzərdə tutulmuşdur. Eyni zamanda, kitabçadan özəl torpaq sahibləri, icma üzvəri, turizm şirkətlərinin menecerləri, tələbələr, elmi işçilər və geniş oxucu kütləsi də isitfadə edə bilər.

## HANDBOOK DEVELOPED ON "INTEGRATED LAND USE MANAGEMENT OF MUNICIPAL LAND IN THE MOUNTAIN AREAS OF AZERBAIJAN"

Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, has prepared a handbook on "Integrated Land Use Management of Municipal Land in the Mountain areas of Azerbaijan". This handbook was developed within the 'Integrated Management of Biodiversity in the South Caucasus' program (IBiS), which is financed by the German Federal Ministry for Economic Cooperation and Development (BMZ) and jointly implemented by the Ministry of Ecology and Natural Resources, the Ismayilli Executive District and German Corporation for International Cooperation (GIZ). This handbook serves as a guidance, providing knowledge and practical skills for improving the integrated land use.

Hence, the handbook addresses mainly municipality representatives, land managers, government officials and all their partners involved in land management in mountain regions. It can be also used by private lands owners, research workers, students, community members, managers of touristic companies.



# TƏLƏBƏLƏRİN GƏNCƏYƏ SƏFƏRİ
# STUDENTS' GANJA TRIP

2019-cu il dekabrın 14-də Xəzər Universitetinin xarici və yerli tələbələri Gəncə şəhərinə bir günlük səfər etdilər. Səfər Asiya icması tələbələri, "Dünya" məktəbinin şagirdi Araz Cəbrayılovun təşəbbüsü və Beynəlxalq ofisinin dəstəyi ilə təşkil edilmişdi. Səfərin ilk hissəsi Nizami Gəncəvinin məqbərəsi, Şüşə ev, Xan bağı, Şah Abbas məscidi, Cavad Xanın məzarı və Gəncə şəhərinin digər görməli yerlərinə həsr olunmuşdu. Azərbaycan Dövlət Kənd Təsərrüfatı Universitetinin yerli tələbəsi Ağasahib Qasımov şəhər turu boyunca bələdçilik etdi.

Şəhər turundan sonra Xəzər Universitetinin tələbələri Gəncə Şəhər Uşaq Evinə baş çəkdilər. Səfər zamanı tələbələr və Xəzər Universitetinin əməkdaşları tərəfindən müxtəlif mövzularda təqdimatlar təqdim olundu.Uşaqlar üçün kitablar, dəftərxana ləvazimatları, dil öyrənmə vasitələri, lövhəciklər, sənətkarlıq üçün avadanlıqlar və s. hədiyyələr gətirilmişdi.

Xəzər Universitetinin tələbəsi Murtaza Afzali uşaqlarla birlikdə əyləncəli oyun nümayiş etdirdi, Sonra o, "BMT –Davamlı İnkişaf Məqsədləri" mövzusunda çıxışında uşaqlara BMT-nin məqsədləri barədə məlumat verdi. Afzalinın təqdimatından sonra Xəzər Universitetinin Beynəlxalq ofisində təcrübə keçən Aynur Abbassoy "Dünyanı dəyişən uşaqlar" mövzusunda təqdimat etdi və Greta Thunberg, Malala Yousafzai, Reyhan Camalova, Cek Andraka kimi qəhrəmanları onlara nümunə göstərdi.

*(Ardı səh.36-da)*

On December 14, 2019, Khazar University international and local students made one-day trip to Ganja city. The trip was organized upon the initiative of Asian community students, Dunya school student Araz Jabrailov and with the support of the International Office. The first part of the trip was dedicated to the main sights of Ganja city, like Nizami mausoleum, Bootle house, Khan Bagi, Shah Abbas mosque, Javad khan grave and many others. Local student of Azerbaijan State Agricultural University Agasahib Gasimov was our guide throughout the city tour.

Following the city tour, Khazar University students visited Ganja city Orphanage. During the visit, presentations on different topics have been presented to the children by the students and Khazar University staff. Meanwhile, gifts for the children have been brought, such as books, stationery, language learning tools, board games, equipment for making crafts and so on.

Khazar University student Murtaza Afzali, before starting his presentation, carried out energizer with the children. Afterward, he delivered a presentation entitled 'UN – Sustainable Development Goals'. During the presentation, children were informed about UN goals and the presenter ensured children's active participation. After Afzali's presentation, Khazar University International Office intern Aynur Abbassoy made a presentation on 'Children who changed the World' and the heroes like Greta Thunberg, Malala Yousafzai, Reyhan Jamalova, Jack Andraka have been presented as role models for them.

*(To be continued page 36)*







Sonra "Dünya" məktəbinin şagirdi Araz Cəbrayılov "Gənclərin keyfiyyətli təhsili" adlı layihəsini təqdim etdi və təhsilin əhəmiyyətini vurğuladı. Xəzər Universitetinin xarici tələbəsi İmtiaz Əhməd uşaqlara əyləncəli, eyni zamanda, məlumatlı "7 Dünya" mövzusunda təqdimat etdi, mövzu qitələr, okeanlar haqqında idi və İmtiaz Əhməd uşaqların fəal iştirakını təmin etdi.

Son təqdimat Xəzər Universitetinin beynəlxalq ofisi və Beeco təşəbbüsünün təsisçisi İncə Əliyeva tərəfindən "Mövcud ekoloji problemlər və ətraf mühitə təsirin azaldılması yolları" mövzusunda oldu. Uşaqlara ətraf mühitin çirklənməsi, iqlim dəyişikliyi, meşələrin salınması və meşələrin qırılması barədə məlumat verildi.

Sonda uşaqlar qonaqlara maraqlı rəqs tamaşaları təqdim etdilər.

Following that, Dunya school student Araz Jabrailov presented his project on 'Youth Quality Education' and highlighted the importance of education. Khazar University international student Imtiaz Ahmed delivered entertaining, meanwhile informative '7 Worlds' presentation to the children, the topic was on continents, oceans and Imtiaz ensured children's active participation.

The last presentation was given by Khazar University International office staff and Beeco initiative founder Incha Aliyeva on 'Existing Environmental issues and ways of the reduce environmental impact'. Children were informed about the types of environmental pollution, climate change, afforestation and deforestation.

In the end, Ganja orphanage children performed an interesting dance routine.









# "ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN SOSİAL CƏMİYYƏTƏ İNTEQRASİYASI" ADLI TƏDBİR

# EVENT ENTITLED "INTEGRATION OF PEOPLE WITH DISABILITIES INTO SOCIETY"

2019-cu il dekabrın 16-da Xəzər Universitetində Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadənin təşkilatçılığı ilə "Əlilliyi olan şəxslərin sosial cəmiyyətə inteqrasiyası" adlı tədbir keçirildi. Tədbirin spikeri kimi çıxış edən jurnalist, "Qayğı" Sağlam Nəsil Naminə İctimai Birliyinin PR meneceri, ADU-nun SABAH qruplarının müəllimi, "Yer kürəsinin şahzadəsi" adlı bestsellerin müəllifi Xülya Cəfərova müasir dövrdə KİV-in əlilliyi olan şəxslərin inteqrasiyasında rolundan, xarici modellərin praktikada istifadə olunmasından, Azərbaycanda mövcud problemlərdən və islahatlardan danışdı.

Tələbələrin marağına səbəb olan mövzunu daha sonra bu sahədə aktiv fəaliyyəti olan və öz keçdiyi təcrübələri gənclər ilə bölüşən Xanlar Məmmədov davam etdirdi. Tələbələrə fiziki məhdudiyyətinin olmasına baxmayaraq, indiyə qədər əldə etdiyi uğurlar haqqında məlumat verdi.

On December 16, 2019, Khazar University hosted an event entitled "Integration of People with Disabilities into Society" organized by Nilufar Alizade, an instructor and PhD student at the Department of Psychology. Speaking at the event, journalist Khulya Jafarova, PR manager of "Qayghi" Healthy Generation Public Union, teacher of the ASU SABAH groups, author of the best-seller book "Prince of the Wind" ("Yel kürəsinin şahzadəsi"), delivered talk on the role of the media outlets in integration of the people with disabilities, about practical use of foreign models, current problems and reforms in Azerbaijan. The topic that was of particular interest for the students was continued by Khanlar Mammadov, an activist in this field who shared his own experiences with the youth. He informed the students about the achievements he gained, despite some physical limitations.





## XƏZƏR UİVERSİTETİNİN MÜƏLLİMİ YÜKSƏK VƏZİFƏYƏ TƏYİN EDİLDİ

Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Zibər Hüseynova Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının İcraçı direktoru vəzifəsinə təsdiq edilmişdir.

Sözügedən palata Azərbaycan və Fransa arasında işgüzar münasibətləri inkişaf etdirmək üçün səmərəli iş şəbəkəsi və əlaqə qurma platformasıdır.

## KHAZAR UNIVERSITY TEACHER APPOINTED TO SENIOR POSITION

Ms. Zibar Huseynova, instructor at Political Science & Philosophy Department, approved as the Managing Director of the Azerbaijan-France Chamber of Commerce and Industry (CCIAF).

The CCIAF is the platform for effective business networking and contact building to promote the business relations between Azerbaijan and France.

## KLİNİKA VƏ UNİVERSİTET ARASINDA ƏMƏKDAŞLIQ

## COLLABORATİON BETWEEN CLİNİC AND UNİVERSİTY

Leyla Şıxlinskaya klinikası ilə Xəzər Universiteti arasında anlaşmaya əsasən hər ay klinikanın həkimləri tələbələr arasında zərərli vərdişlər, reproduktiv sağlamlıq və cinsi tərbiyə mövzusunda mühazirə oxuyacaq və seminarlar keçirəcəklər.

Seminar və mühazirələrdə tələbələrə cinsi yetkinlik, cinsi yolla yayılan xəstəliklər, fərdi gigiyena qaydaları, zərərli vərdişlər haqqında məlumat verməklə yanaşı, gəncliyin fiziki və mənəvi sağlamlığına mənfi təsir göstərən, bütün dünyanı narahat edən prob-lemlərdən hesab olunan narkomaniyanın dövlətin və cəmiyyətin qarşısında mühüm bir problem kimi dayandığı, onunla mübarizədə dövlət orqanları ilə bərabər ictimai təşkilatların, o cümlədən, qeyri-hökumət təşkilatlarının birgə fəaliyyət göstərməsinin zəruriliyi nəzərə çatdırılacaqdır.

According to the Agreement between Leyla Shikhlinskaya Clinic and Khazar University, doctors of the clinic monthly deliver lectures and seminars on harmful habits, reproductive health and sexual education among students.

Alongside raising awareness about sexual maturity, sexually transmitted diseases, personal hygiene rules, and harmful habits, during the seminars and lectures the information was provided on one of the factors that adversely affects the physical and spiritual health of youth – the problem of drug addiction, which is the concern for the whole world. It is being elucidated to students that drug addiction is a thorny issue for the state and society, and that besides work done by state organs, the joint efforts by public organizations, including non-governmental organizations, can be effective in combating this problem.

## XƏZƏR UNİVERSİTETİNİN RƏQS ANSAMBLI FESTİVALIN QALİBİ OLDU

## KHAZAR UNIVERSITY'S DANCE ENSEMBLE IS WINNER OF FESTIVAL

Xəzər Universitetinin rəqs ansamblı (müəllim Səbinə İsmayılova) Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illiyinə həsr edilmiş rəqs festivalının 2019-cu il dekabrın 16-da keçirilmiş yekun konsertində iştirak etmiş və festivalın qaliblərindən biri olmuşdur.

Festival haqqında geniş məlumat aşağıdakı linklərdə:

*https://olaylar.az/news/medeniyyet/362072*
*https://salamnews.org/az/news/read/369137*

Khazar University's dance ensemble (teacher-Sabina İsmayilova) took part in the closing concert dedicated to 50th anniversary of the National Hero of Azerbaijan Albert Agruunov, jointly organized by the Baku City Department of Culture and the Kara Garayev Central School of Art on December 16, 2019, and became one of the festival's winners.

More information about the festival can be found at the following links:

*https://olaylar.az/news/medeniyyet/362072*
*https://salamnews.org/az/news/read/369137*






# "QIŞ FESTİVALI VƏ ÇİN MƏTBƏXİ" ADLI TƏDBİR



2019-cu il dekabrın 16-da Xəzər Universitetinin və Bakı Dövlət Universitetinin (BDU) nəzdindəki Konfutsi İnstitutunun təşkilatçılığı ilə Xəzər Universitetində "Qış festivalı və Çin mətbəxi" adlı tədbir keçirildi.

Alış mərasimində çıxış edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı Çinin dünya mədəniyyətindəki tarixi rolundan, son dövrlərdə dünya iqtisadiyyatının aparıcı güclərindən birinə çevrilməsindən, Çin ilə Azərbaycan arasında əlaqələrin tarixindən, həmçinin Çin dili və mədəniyyətinin qloballaşan dünyada yerindən danışdı. O, Çin mədəniyyətinin dünyaya tanıdılmasında, Çinin digər ölkələrlə mədəni, iqtisadi və elmi əlaqələr qurmasında Konfutsi institutlarının çox böyük rola malik olduğunu vurğuladı. Professor Hamlet İsaxanlı BDU-nun nəzdindəki Konfutsi İnstitutunun Xəzər Universitetindəki filialının fəaliyyətini yüksək qiymətləndirdi.

*(Ardı səh.42-də)*









# "WINTER FESTIVAL AND CHINESE CUISINE" EVENT



On December 16, 2019, Confucius Institutes of Khazar University and Baku State University organized the "Winter Solstice Festival and Chinese Cuisine" at the University.

Delivering his statement at the opening ceremony, Professor Hamlet Isakhanli, Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, talked about China's historical role in world culture, its recent transformation into one of the world's leading economies, history of relations between China and Azerbaijan, and the role of Chinese language and culture in the globalized world. He emphasized the role of Confucius institutions in the promotion of Chinese culture worldwide, in establishing cultural, economic and scientific relations of China with other countries. Professor Hamlet Isakhanli highly appreciated the activity of Khazar University branch of the Confucius Institute at BSU.

*(To be continued page 42)*








Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, Konfutsi İnstitutunun Azərbaycan tərəfdən direktoru Oqtay Cəlilbəyli tədbirin əhəmiyyətini vurğuladılar. Bildirildi ki, Çin qədim tarixə və zəngin mədəniyyətə malik ölkədir.

Qeyd edək ki, öz bayramlarının çoxcəhətli ənənəsi ilə məşhur olan bu ölkədə Yeni ili dekabrın 20-də qeyd edirlər.

Tədbir musiqi proqramı ilə başa çatdı

AZƏRTAC tədbir haqqında xəbər yayıb:

*https://azertag.az/xeber/Xezer_Universitetinde_tedbir_Qis_festivali_ve_CHin_metbexi-1368033*

Associate Professor Irada Khalilova, Rector of Khazar University, and Ogtay Jalilbeyli, Confucius Institute Director for Azerbaijan, emphasized the importance of the event. It was noted that China is a country with ancient history and rich culture.

It is worth mentioning, this country, which is known for its multifaceted tradition of celebrations, the New Year is celebrated on 20th of December.

The event was concluded with a music program

AZERTAC reported about the event:

*https://azertag.az/xeber/Xezer_Universitetinde_tedbir_Qis_festivali_ve_CHin_metbexi-1368033*






# AVRASİYA BİLİK MƏRKƏZİ "AZƏRBAYCANDA YAXŞI İDARƏETMƏ: MÖVCUD DURUM VƏ PERSPEKTİV İMKANLAR" MÖVZUSUNDA DƏYİRMİ MASA KEÇİRDİ

# EURASIA HUB ORGANIZED ROUNDTABLE ON "GOOD GOVERNANCE IN AZERBAIJAN: CURRENT CONDITION AND PERSPECTIVES"

2019-cu il dekabrın 17-də Avrasiya Bilik Mərkəzi "Azərbaycanda yaxşı idarəetmə: mövcud durum və perspektiv imkanlar" mövzusunda Bakıda dəyirmi masa keçirdi.

Tədbirdə Avrasiya Bilik Mərkəzi ekspert qrupunun həyata keçirdiyi tədqiqat işləri təqdim və müzakirə olundu. Dövlət qurumlarının və beynəlxalq təşkilatların nümayəndələri, habelə, vətəndaş cəmiyyəti üzvləri müzakirələrdə aktiv iştirak etdilər. Ekspert qrupunun hazırladığı tövsiyələrin nəzərdən keçirilməsi ilə bağlı dövlət qurumları ilə müzakirələrin davam etdirilməsi qərara alındı.

On December 17, 2019, Eurasia Hub organized the Roundtable on "Good Governance in Azerbaijan: Current Condition and Perspectives" in Baku.

The final outcomes of the research works by the Eurasia Extractive Industries Knowledge Hub expert group were presented and discussed during the event. The representatives of state agencies, international organizations, and civil society actively participated in the discussions and contributed with their comments. It was decided to cooperate with policy-makers on the implementation of recommendations made by expert group.



# ALMANİYA SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# AMBASSADOR OF GERMANY AT KHAZAR UNIVESITY

2019-cu il dekabrın 17-də Almaniya Federativ Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Dr.Wolfgang Maning Xəzər Universitetində oldu.

Səfir Maning Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları ilə görüşdü. Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri, Dr.Elmar Mustafayev və Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Anar Cəfərov iştirak edirdilər.

Görüşdə səfirə Xəzər Universitetinin tarixi, onun elmi proqramları, tədqiqat potensialı, beynəlxalq əlaqələr, bundan əlavə, Xəzər Universiteti və Almaniyanın Tubingen Universitetinin bu yaxınlarda DAAD tərəfindən qrant aldığı birgə layihəsi haqqında məlumat verildi.

Görüşdən sonra Wolfgang Maning Siyasi elmlər və fəlsəfə departamentinin tələbələri ilə görüşdü. "Liberal cəmiyyət: Bir vaxtlar parlaq nümunə – indi isə günahkar keçi?" adlı seminarda müxtəlif ölkələrdə oturuşmuş liberal cəmiyyətin müsbət cəhətləri müzakirə edildi.

Seminar sual-cavab sessiyası ilə davam etdi və sonda səfir dəvətə və Siyasi elmlər və fəlsəfə departamentinin tələbələri ilə maraqlı və interaktiv bir seminar keçirdiyinə görə Xəzər Universiteti rəhbərliyinə minnətdarlığını bildirdi.

On December 17, 2019, H. E. Dr. Wolfgang Maning, Extraordinary and Plenipotentiary Ambassador of Federal Republic of Germany to Azerbaijan paid a visit to Khazar University.

Ambassador Maning met with Khazar University leadership and staff members. The meeting was attended by Prof. Hamlet Isakhanli, the Founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees; Associate Professor Irada Khalilova, Rector of Khazar University; Professor Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs; Ms. Raziya Isayeva, Director of Development Center; Dr. Jeyhun Mammadov, Dean of the School of Management and Economics; Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department and Dr.Anar Jafarov, Instructor at Political Science and Philosophy Department.

H. E. Ambassador was informed about the history of Khazar University, its degree programs, research capacity, and international relations. Furthermore, he was briefed about the joint project of Khazar University and Tubingen University in Germany that recently received grant from the DAAD.

Following the meeting, Wolfgang Maning met with students of the Political Science and Philosophy Department and delivered seminar on "Liberal Society: Once shining Example-now Scapegoat?". The seminar was focused on the advantages of liberal society by providing the examples from consolidated liberal countries.

Ambassador concluded his presentation by welcoming questions from the audience after which he expressed his gratitude to Khazar University administration for an invitation and expressed his joy for an interesting and interactive seminar with students of Political Science and Philosophy Department.

















# 5-Cİ AVRASİYA ELMİ ARAŞDIRMALAR VƏ MÜASİR TƏDQİQATLAR KONFRANSI



2019-cu il dekabrın 17-18-də Xəzər Universitetində "5-ci Avrasiya elmi araşdırmalar və müasir tədqiqatlar" mövzusunda beynəlxalq konfrans keçirildi.

Konfransı giriş sözü ilə İKSAD-ın başqanı Mustafa Latif Emek açdı. O, çıxışında konfransın elm qurumuna 400-dən artıq məqalənin daxil olduğunu, 165 elmi məqalənin gündəliyə salındığını və konfransda dünyanın müxtəlif ölkələrindən: Türkiyə, Azərbaycan, Rusiya, Pakistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Efiopiya və digər ölkələrdən nümayəndələrin qatıldığını bildirdi. Açılışda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İslamabad Müasir Milli Dillər Universitetinin nümayəndəsi Muntazir Mehdi, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dekanı professor Mahirə Hüseynova çıxış etdilər.

*(Ardı səh.48-də)*







# 5TH EURASIAN CONFERENCE OF SCIENTIFIC RESEARCH AND CONTEMPORARY STUDIES

On December 17-18, 2019, the "5th Eurasian International Conference of Scientific Research and Contemporary Studies" was held at Khazar University.

The Conference was opened by Mustafa Latif Emek, the Chairman of IKSAD. He announced that the Conference received more than 400 articles, 165 scientific articles were included to the agenda and representatives from different countries of the world were taking part at the Conference: Turkey, Azerbaijan, Russia, Pakistan, Georgia, Kazakhstan, Kyrgyzstan, Ethiopia and others. Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Professor Irada Khalilova, Rector of Khazar University, Muntazir Mehdi, Representative of Islamabad Modern National University, Professor Mahira Huseynova, Dean of Azerbaijan State Pedagogical University delivered speeches.



*(To be continued page 48)*









İKSAD-ın başqanı Mustafa Latif Emek Xəzər Universitetinin təsisçisi professor Hamlet İsaxanlıya, universitetin rektoru dosent İradə Xəlilovaya və İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyliyə təşəkkür plaketləri təqdim etdi. Açılışda Xəzər Universitetinin Kamera orkestri və rəqs kollektivinin ifaları alqışlarla qarşılandı.

Konfrans öz işini bölmələrdə davam etdirdi. Xəzər Universiteti də daxil olmaqla müxtəlif ölkələrin elmi və ali təhsil müəssisələrinin alim və mütəxəssislərinin məruzələri dinlənildi və müzakirələr aparıldı. Sonda iştirakçılara sertifikat təqdim olundu.

Mustafa Latif Emek, the Chairman of IKSAD presented courtesies to Professor Hamlet Isakhanli, Associate Professor Irada Khalilova and Alovsat Amirbeyli. At the opening ceremony, the performance by Khazar University Chamber Orchestra and the dance group were greeted with applause.

The conference continued its work in sections. Reports of scholars and experts from different scientific and higher educational institutions, including Khazar University, were listened out and were followed by discussions. At the end, the participants were given certificates.






1991
BAKI




INSTITUTE OF ECONOMIC DEVELOPMENT AND SOCIAL RESEARCHES
www.iksad.org.tr
1991
BAKI











## PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORU BEYNƏLXALQ AVRASİYA KONFRANSINDA

## COORDINATOR OF PSYCHOLOGY DEPARTMENT AT INTERNATIONAL EURASIA CONFERENCE

2019-cu il dekabrın 17-də Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova Xəzər Universitetinin ev sahibliyi ilə təşkil edilən 5-ci Beynəlxalq Avrasiya konfransında "M.Duchampın sənət anlayışı və Dadaizm" mövzusunda məruzə ilə çıxış etdi. Mövzu ətrafında müzakirələr zamanı suallar cavablandırıldı.

M.Kərimovanın tədqiqat işinin konfrans materialları toplusunda məqalə kimi çap olunması nəzərdə tutulmuşdur.

On December 17, 2019, Melek Karimova, Coordinator at the Department of Psychology of Khazar University, made a thesis on "M. Duchamp's conception of art and Dadaism" at the 5th International Eurasia Conference hosted by Khazar University. During the discussions around the topic, the questions were answered.

M. Karimova's research work will be published as an article in the book of scientific-practical conference materials.

## BP KİM-Ə KİTAB BAĞIŞLADI

2019-cu il dekabrın 18-də BP şirkəti tərəfindən Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinə (KİM) Azərbaycan dilinə tərcümə olunmuş "İdarəetmənin əsasları", "Siyasət elminə giriş "və "Keys menecment" adlı kitablar hədiyyə olundu.

Bu kitabların Azərbaycan dilinə tərcüməsi və nəşri BP-nin ölkədə təhsilin inkişafına verdiyi dəstəyin bir hissəsidir.

## BP DONATES BOOKS TO LIC

On December 18, 2019, the books translated into Azerbaijani, such as "Fundamentals of Management", "Introduction to Political Science" and "Case Management" were donated by BP to Library and Information Center of Khazar University.

Translation and publication of these books into Azerbaijani is part of BP's support for the development of education in the country.

## XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNİN MƏQALƏSİ TÜRKİYƏDƏ ÇAP OLUNUB

## ARTICLE BY KHAZAR UNIVERSITY'S TEACHER PUBLISHED IN TURKEY

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, hazırda müvəqqəti Çində çalışan Aynur Qəzənfərqızının "Köpek kadından Lilit Alkarısı ve Isıkıl Lillaya kadar uzanan mitolojik hat" adlı məqaləsi Türkiyədə impact faktorlu "Uluslararası Halkbilim Araştırmaları Dergisi"ndə (cild 2, sayı 3) çap olunmuşdur.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*https://dergipark.org.tr/tr/pub/uhad/issue/50308*

An article by Aynur Gazanfargizi, teacher of the Languages and Literature Department at Khazar University, currently working in China, entitled "Köpek kadından Lilit Alkarısı ve Isıkıl Lillaya kadar uzanan mitolojik hat" has been published in "Uluslararası Halkbilim Araştırmaları Dergisi"(The Journal of International Folklore Researches, Volume 2, Issue 3).

The article can be read at the following link:

*https://dergipark.org.tr/tr/pub/uhad/issue/50308*

# PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI ELMİ-PRAKTİKİ KONFRANSDA

2019-cu il dekabrın 18-də Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Texniki Universitetinin birlikdə təşkil etdikləri "Azərbaycan və Türkiyə universitetləri: təhsil, elm, texnologiya" birinci Beynəlxalq elmi-praktiki konfransında iştirak etdi.

M.Kərimova "İncəsənətin sosial hadisə kimi cəmiyyətdə rolu" mövzusunda çıxış etdi. Çıxış zamanı o, Xəzər Universitetində incəsənət sahəsinə də xüsusi diqqət yetirildiyini və tələbələrdə estetik tərbiyənin formalaşması üçün mədəniyyət dərslərinin də keçirildiyini qeyd etdi. Mövzu ətrafında müzakirələr zamanı suallar cavablandırıldı.

M.Kərimovanın tədqiqat işi elmi-praktiki konfrans materialları toplusunda məqalə kimi çap olunmuşdur.




# MEMBER OF PSYCHOLOGY DEPARTMENT TAKES PART IN SCIENTIFIC-PRACTICAL CONFERENCE

On December 18, 2019, Melek Karimova, Coordinator at the Department of Psychology of Khazar University, took part in the first International Scientific and Practical Conference "Azerbaijani and Turkish Universities: Education, Science, Technology" jointly organized by the Ministry of Education of the Republic of Azerbaijan and the Azerbaijan Technical University. M. Karimova made a thesis on "The role of art in society as a social event". Delivering her thesis, she noted that Khazar University also pays close attention to the arts and for this purpose included cultural lessons for students to develop aesthetic education. During the discussions around the topic, the questions were answered.

M. Karimova's research work has been published as an article in the book of scientific-practical conference materials.

# RİYAZİYYAT DEPARTAMENTİNİN MÜƏLLİMİNİN HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ ÇAP OLUNUB

# ARTICLE CO-AUTHORED BY MEMBER OF MATHEMATICS DEPARTMENT PUBLISHED

Riyaziyyat departamentinn professoru Nazim Kərimovun həmmüəllifi olduğu məqalə (Z. S. Əliyev və V. A. Mehrabovla) *Clarivate Analytics* (əvvəlki adı *Thomson Reuters*) siyahısına daxil olan yüksək impakt faktorlu "Дифференциальные уравнения" jurnalında çap olunmuşdur.

Article co-authored by Professor Nazim Karimov from the Department of Mathematics (co-authors Z.S. Aliyev and V.A. Mehrabov) was published in the "Дифференциальные уравнения" Journal with high impact factor, included to the list of Clarivate Analytics (formerly *Thomson Reuters*).

## XƏZƏR UNİVERSİTETİ NÜMAYƏNDƏLƏRİNİN İRAN SƏFƏRİNƏ DAİR MÜŞAVİRƏ

2019-cu il dekabrın 18-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amaninin İrana səfərinə (8-11 dekabr) dair müşavirə keçirildi.

Müşavirəni professor Hamlet İsaxanlı açaraq, İranın Culfa, Xoy,Təbriz və Marağa şəhərlərində keçirilmiş görüşlərdə əldə olunmuş nəticələr və gələcəkdə həyata keçirilməli olan tədbirlər haqqında geniş məlumat verdi. Professor qeyd etdi ki, Xəzər Universitetinin Avropa və Türkiyə universitetləri ilə geniş əlaqələri olduğu halda, İran universitetləri ilə əlaqələri zəifdir və bu sahədə tədbirlər görülməlidir. Professor həmçinin Azərbaycan, Türkiyə və İran universitetləri arasında üçbucaq iş birliyi yaradılmasının da mümkünlüyünü və bunun böyük səmərə verəcəyini söylədi.

Sonra Dr. Bahman Amani olduqları şəhərlərdə iştirak etdikləri tədbirlər haqqında xronoloji ardıcıllıqla məlumat verərək, səfərin tam mənzərəsini iştirakçılara çatdırdı.

Sonda professor Hamlet İsaxanlı İran Universitetləri ilə əlaqələrin genişləndirilməsinə aid konkret fikirlərini bildirdi və universitet qurumlarına müvafiq təkliflər hazırlamağı tövsiyə etdi.

## DISCUSSIONS ON KHAZAR UNIVERSITY DELEGATION VISIT TO IRAN

On December 18, 2019, discussions regarding the visit of Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and Dr. Bahman Amani, Head of the English Language and Literature Department, to Iran (December 8-11) was held.

Professor Hamlet Isakhanli opened the meeting and provided a detailed information about the results of the meetings held in Julfa, Hoy, Tabriz and Maragha, and also about envisaged for future implementation. Professor indicated that while Khazar University has extensive links with European and Turkish universities, its relations with Iranian universities are weak and respective measures should be taken in this field. Professor also talked about the opportunity to create a triangular association between the universities of Azerbaijan, Turkey and Iran, and emphasized its great efficiancy.

Then Dr. Bahman Amani provided information on the events they took part in the respective cities in the chronological sequence and thuswise delivered a complete picture of their visit to participants.

At the end, Professor Hamlet Isakhanli expressed his specific views on expanding relations with Iranian universities and recommended the University bodies to prepare relevant proposals.

## HƏMKARLAR TƏŞKİLATI ƏMƏKDAŞLARA HƏDİYYƏ TƏQDİM ETDİ

## TRADE UNION PRESENTED GIFTS TO EMPLOYEES

Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqının Nizami Rayon Komitəsi Xəzər Universiteti Həmkarlar Təşkilatının sədri Əlövsət Əmirbəyli tərəfindən Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl münasibətilə universitet əməkdaşlarının bir qrupuna pul yardımı və təşkilatın üzvlərinə yeni il şənlikləri üçün hədiyyə biletləri təqdim edilmişdir.

Alovsat Amirbeyli, the Chairman of Khazar University Trade Union of the Nizami District Committee of Trade Unions of Public Administration and Public Service of Azerbaijan, presented gifts in the form of financial support to group of members of the University and also New Year celebration gifts to the members of the organization, on the occasion of International Solidarity Day of Azerbaijanis and New Year.

## KHAZAR JOURNAL OF SCIENCE AND TECHNOLOGY JURNALININ NÖVBƏTİ SAYI

Xəzər Universitetinin illik nəşri olan beynəlxalq *Khazar Journal of Science and Technology* (KJSAT) jurnalının (Xəzər elm və texnologiya jurnalı) növbəti sayı çapdan çıxmışdır (cild 3, №1, 2019).

Jurnalın bu sayında Azərbaycan Milli Elmlər Akademiyasının Molekulyar Biologiya və Texnologiyalar İnstitutu, Genetik Resurslar İnstitutu, Bakı Dövlət Universiteti, Xəzər Universiteti, Baytarlıq Elmi Araşdırmalar İnstitutu (Azərbaycan), Kənd Təsərrüfatı Tədqiqatı və Genişləndirmə Təşkilatı (Karaj, İran İsam Respublikası), İslam Azad Universiteti (Tehran, İran İslam Respublikası) və Nazarbayev Universitetinin (Nur-Sultan, Qazaxıstan) əməkdaşları müxtəlf mövzularda tədqiqatlarının nəticələrini təqdim edirlər.




## SUBSEQUENT ISSUE OF KHAZAR JOURNAL OF SCIENCE AND TECHNOLOGY

The subsequent issue of Khazar Journal of Science and Technology (KJSAT), an annual edition of Khazar University, has been published (Vol. 3, No. 1, 2019).

In this issue of the Journal, the faculty members of the following institutions presented their research results on a variety of topics: Institute of Molecular Biology and Technology of the National Academy of Sciences of Azerbaijan, Institute of Genetic Resources, Baku State University, Khazar University, Institute of Veterinary Research (Azerbaijan), Organization of Agricultural Research and Expansion (Karaj, Islamic Republic of Iran), Islamic Azad University (Tehran, Islamic Republic of Iran) and Nazarbayev University (Nur-Sultan, Kazakhstan).

## XƏZƏR HAVA KEYFİYYƏTİ LABORATORİYASININ NOYABR VƏ DEKABR AYLARI ÜÇÜN MƏLUMATI

## KHAZAR UNIVERSITY AIR QUALITY LABORATORY INFORMATION FOR NOVEMBER AND DECEMBER

Noyabr və dekabr aylarında ölçmələr tələbələr tərəfindən Bakı şəhəri üzrə 14 məntəqədə, hər məntəqədə iki dəfə olmaqla aparılmışdır.

Noyabrla müqayisədə dekabr ayında havanın keyfiyyətində kəskin pisləşmə müşahidə olunmuşdur. Əgər noyabrda "Gənclik", "Əhmədli" və "İçərişəhər" metro stansiyalarının ətrafını ən çirkli ərazilər adlandırmaq olardısa, dekabr ayında bu səviyyə bütün məntəqələrə aid edilə bilər.

Ən kəskin çirkləndiricilər isə, əvvəlki kimi, TVOC (Uçucu üzvi birləşmələr) və NO2, əsas çirklənmə mənbələri də, əvvəlki kimi, avtomobillər (xüsusilə iri avtobuslar) olmuşdur.

In November and December, air quality measurements were carried out by students at 14 points in Baku and twice at each station.

Compared to November, there was a sharp deterioration in air quality in December. Whereas in November the metro stations "Ganjlik", "Ahmedli" and "Icheri Sheher" could be regarded as the most polluted, in December this level could be attributed to all of the stations.

The most severe pollutants, as before, were TVOC (Volatile Organic Compounds) and NO2, as for the major pollution sources, as previously, were the cars (especially large buses).



# TÜRKİYƏLİ QONAQLAR XƏZƏR UNİVERSİTETİNDƏ

# GUESTS FROM TURKEY AT KHAZAR UNIVERSITY

2019-cu il dekabrın 18-də Xəzər Universitetində "Bodrum Lujo" hotelin nümayəndələri ilə universitet rəhbərliyi və əməkdaşlarının görüşü oldu. Görüşdə Xəzər Universitetini rektor dosent İradə Xəlilova,. Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Karyera inkişaf mərkəzinin koordinatoru Fəxrəddin Abdullayev, "Bodrum Lujo" hotelin Ön ofis meneceri Çağrı Kaya, Qida menecer assistenti Burak Vurucu, İnsan resursları meneceri Safiye Sakallıoğlu, İnsan resursları mütəxəssisi Aynur Əliməmmədova, Satış və marketinq mütəxəssisi Fuad Babayev təmsil edirdilər.

Görüş zamanı İqtisadiyyat və menecment fakultəsi tələbələrinin Türkiyədə ixtisasları üzrə təcrübə keçmələri və gələcək iş imkanları müzakirə olundu. Safiye Sakallıoğlu Xəzər universiteti ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiklərini, məzunların işlə təmin olunacaqlarını vurğuladı. Müzakirələrin gedişində hotel nümayəndələri universitet nümayəndələrinin təkliflərinə münasibət bildirib, suallarını cavablandırdılar. Danışıqlar əsnasında əlaqələrin rəsmiləşdirilməsi və layihənin ən qısa zamanda ilkin nümunəsinin tərtib olunmasının müzakirəsi ilə görüş başa çatmışdır.

December 18, 2019 the meeting of Khazar University Leadership and staff members with the representatives of "Bodrum Lujo" Hotel took place at Khazar University. At the meeting, Khazar University was represented by Associate Professor Irada Khalilova, Rector of Khazar University, Professor Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Dr. Jeyhun Mammadov, Dean of the School of Management and Economics, Fakhraddin Abdullayev, Career Development Center's Coordinator, and Chaghrı Kaya, Front office manager of the "Bodrum Lujo" Hotel, Burak Vurucu, Food and Beverage Manager Assistant, Safiye Sakallioghlu, Human Resources Manager, Aynur Alimammadova, Human Resources Specialist, Fuad Babayev, Sales and Marketing Specialist attended the meeting.

During the meeting, the issues such as student internship in Turkey and future employment opportunities for those students studying at the School of Economics and Management. Safiye Sakallıoghlu emphasized that they have highest regard to the cooperation with Khazar University. During the discussions, hotel representatives also answered the questions and suggestions set forth by university representatives. The meeting was completed with the discussion of formalizing the relations and drawing up the preliminary draft of the project in short order.





# OTEL NÜMAYƏNDƏLƏRİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜLƏR

# HOTEL REPRESENTATIVES MET WITH STUDENTS

2019-cu il dekabrın 18-də Karyera inkişaf mərkəzinin təşkilatçılığı ilə "Bodrum Lujo" otelin nümayəndələri Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin tələbələri ilə görüşdülər. Otelin tələbələr üçün təcrübə və iş imkanları mövzusunda təqdimatı oldu. Təqdimatla otelin Satış və marketinq mütəxəssisi Fuad Babayev və İnsan resursları mütəxəssisi Aynur Əliməmmədova çıxış etdilər.

Təqdimat zamanı otelin strategiyası, turistlərə təqdim olunan xidmətlər və şəxsi heyət üçün dəyərləri vurğulandı, haqqında məlumat verildi. Qeyd edildi ki, bacarığına və qabiliyyətinə görə hər bir işçinin karyerada yüksəlmək imkanlarının gerçəkləşməsi otelin ana xəttini təşkil edir. Oteldə 2020-ci ildən başlayaraq tələbələrin təcrübə proqramında iştirak etmələri üçün şərait yaradılacağı vurğulandı. Sonda tələbələrin sualları cavablandırıldı.

On December 18, 2019, representatives from the "Bodrum Lujo" hotel, upon the arrangements made by the Career Development Center, met with students of Khazar University School of Economics and Management. The hotel made presentation about the internship and job opportunities for students, delivered by Fuad Babayev, Hotel's Sales and Marketing Specialist, and Aynur Alimammadova, Human Resources Specialist.

During the presentation, the information on the hotel's strategy, services for tourists and values for the staff were highlighted. It was noted that providing opportunities for each employee to advance in their careers, according to their abilities and skills, is the main line of the hotel. As a hotel, since 2020, students have been actively involved in this internship program. At the end, students' questions were answered.



# NİDERLAND BİZNES AKADEMİYASININ REKTORU İLƏ GÖRÜŞ

# MEETING WITH RECTOR OF NETHERLANDS BUSINESS ACADEMY

2019-cu il dekabrın 18-də Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova Niderland Biznes Akademiyasının rektoru professor Jan van Swieten və Azərbaycan Dillər Universitetinin Rumın dili və Mədəniyyəti Mərkəzinin rəhbəri Dr. Iosefina Blazsani-Batto ilə görüşdü. Görüşdə, həmçinin, Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Elmar Mustafayev, Təlim və tədris mərkəzinin direktoru Ülkər Bayramova iştirak edirdilər.

Qonaqlarla müzakirələr zamanı universitetlərarası əlaqələrin inkişaf etdirilməsi və yeni əməkdaşlıqların qurulması məsələlərinə toxunuldu. Niderland Biznes Akademiyasının koordinatoru və Xəzər Universitetinin iştirakçısı olduğu "Mediasiya: öyrənmə və ictimai transformasiya" (MEDİATS) layihəsi də müzakirə edildi və layihə çərçivəsində Xəzər Universiteti əməkdaşlarına təlimlərin keçirilməsi, təqdimat konfranslarının və seminarların təşkil edilməsi planlaşdırıldı.

December 18, 2019 Associate Professor Irada Khalilova, Rector of Khazar University, held a meeting with Jan van Swieten, Rector of the Netherlands Business Academy, and Dr. Iosefina Blazsani-Batto, Head of the Romanian Language and Culture Center at the Azerbaijan University of Languages. Professor Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs, Ms. Raziya Isayeva, Director of Development Center, Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department, and Ulker Bayramova, Director of Teaching and Learning Centre, took part in the meeting. During the discussions with the guests, the parties touched upon such matters as the development of inter-university relations and the establishment of new cooperations. The project "Mediation: Learning and Social Transformation" (MEDIATS), coordinated by the Netherlands Business Academy and with the participation of Khazar University, was discussed, and within the framework of the project the training sessions for Khazar University staff was negotiated and moreover the organization of conferences and seminars was scheduled.





# CELAL BAYAR UNİVERSİTETİ PROFESSORUNUN XƏZƏR UNİVERSİTETİNDƏ MÜHAZİRƏLƏRİ

# CELAL BAYAR UNIVERSITY PROFESSOR'S LECTURES AT KHAZAR UNIVERSITY

2019-cu ilin dekabr ayında "Erasmus plus teaching mobility program" proqramı çərçivəsində Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə Celal Bayar Universitetinin (Türkiyə) professoru Ülviyyə Aydın Xəzər Universitetinin tələbələri üçün mühazirələr oxudu. İlk mühazirənin mövzusu "Yenilənə bilən enerji resurslarının iqlim dəyişikliyinin həllində rolu" idi.

Növbəti mühazirə "Aralıq dənizinin şərqində enerji resursları və Türkiyənin mövqeyi" mövzusunda oldu.

Mühazirələr tələbələrin dərin marağı və fəallığı ilə müşayiət olundu, mövzular ətrafında geniş müzakirə aparıldı.

On December 2019, within "Erasmus plus teaching mobility program", Prof. Ulviyya Aydin from Celal Bayar University (Turkey), delivered two lectures, being organized by the School of Economics and Management. The first lecture was dedicated to "Renewable energy sources as a solution for climate change".

The subsequent lecture was entitled "Eastern Mediterranean energy resources and Turkey's position".

Students showed sheer interest in the topics and asked questions that led to extensive discussion around the topics.







## “ASILI OLMA, AZAD OL!” ADLI TƏDBİR

## “DO NOT BE ADDICTED, BE FREE!” EVENT

2019-cu il dekabrın 19-da TİKA, Zərərli Vərdişlərə qarşı İçtimai Birlik, Türkiyə “Yeşilay” Dərnəyi, Xəzər Universiteti Psixoloji Xidmət Mərkəzi və Müasir Psixologiya Mərkəzinin birgə əməkdaşlığı ilə “Asılı olma, azad ol!” adlı tədbir təşkil edildi. Tədbirin əsas məqsədi asılılıq növləri ilə əlaqəli tələbələri maarifləndirmək, asılılıqla mübarizə və qorunma yolları ilə bağlı onları məlumatlandırmaq idi.

Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova qonaqları salamlayaraq, mövzunun aktuallığını qeyd etdi.

Tədbirin təşkilatçısı psixoloq Xəzər Universiteti Psixoloji Xidmət Mərkəzinin rəhbəri Mələk Kərimova mövzunun ölkəmiz üçün çox əhəmiyyətli olduğunu vurğulayaraq, sağlam nəsillər yetişdirməyin, təmiz ətraf mühitin formalaşmasında hər bir vətəndaşın məsuliyyətli və həssas davranmasının zəruriliyini qeyd etdi.

Tədbirdə Ege Universitetinin (Türkiyə) müəllimi psixiatr Prof. Dr. Hakan Coşkunol, Türkiyə “Yeşilay” Cəmiyyətinin danışmanı Kemal Altın, Zərərli Vərdişlərə qarşı İçtimai Birliyin sədri Zaur Orucov, Müasir Psixologiya Mərkəzinin rəhbəri Aida Nəbiyeva çıxış etdilər.

On December 19, 2019, an event entitled “Do not Be Addicted, Be Free!” was jointly organized by TIKA, the Public Association Against Harmful Habits, Turkey's “Yeşilay” Association, Khazar University Center for Psychological Service and the Center for Modern Psychology. The main purpose of the event was to educate students about the types of addiction, to create awareness on how to fight addiction and how to protect themselves.

Rector of Khazar University Associate Professor Irada Khalilova welcomed the guests and noted the significance of the topic.

The organizer of the event, psychologist Melek Karimova emphasized the importance of the issue for our country, noting the responsible and sensitive behavior of every citizen in the formation of a healthy generation and clean environment.

Dr. Hakan Choshkunol, Professor of Psychiatry at Ege University (Turkey), Kemal Altin, Speaker of Turkey's “Yeşilay” Association, Zaur Orujov, Chairman of the Public Association Against Harmful Habits, Aida Nabiyeva, Head of the Center for Modern Psychology, delivered their speeches at the event.


ZƏRƏRLİ VƏRDİŞ
QARŞI İCTİMAİ Bİ






ZƏRƏRLİ VƏRDİŞLƏRƏ
QARŞI İCTİMAİ BİRLİYİ
1991
UNIVERSITY






## UNİVERSİTETİN NÜMAYƏNDƏLƏRİ TƏRƏVƏZÇİLİK ELMİ-TƏDQİQAT İNSTİTUTUNDA

## UNIVERSITY REPRESENTATIVES AT SCIENTIFIC VEGETABLE RESEARCH INSTITUTE

2019-cu il dekabrın 19-da Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, Həyat elmləri departamentinin müdiri Dr. Asəf Ömərov, universitetin dosenti Cavid Ocaqi və universitetin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Səidə Şərifova Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutuna səfər etdilər.

Səfərin əsas məqsədi elmi-tədqiqat sahələrində birgə fəaliyyət, institutun alim və mütəxəssisləri ilə universitetin müəllim və tələbə heyətləri arasında elm və təhsil sahəsində əməkdaşlıq və ortaq tədqiqat işlərinin aparılması istiqamətində oldu. Universitet əməkdaşları istixanalar, aqrobiotexnologiya, bitki-mühafizə, funksional analizlər, emal, saxlama və keyfiyyət laboratoriyaları ilə tanış oldular. Səfərin sonunda Xəzər Universiteti ilə Azərbaycan Elmi-Tədqiqat Tərəvəzçilik İnstitutu arasında elm, təhsil və tədqiqat üzrə əməkdaşlıq haqqında müqavilə imzalandı.

December 19, 2019 Associate Professor Irada Khalilova, the Rector of the University, Dr. Asaf Omarov, Head of the Life Sciences Department, Associate Professor Javid Ojagi, and Saida Sharifova, Head of the Division of Graduate Studies and Research, visited the Scientific Vegetable Research Institute. The main purpose of the visit was to collaborate in the field of scientific research, to build cooperation between scientists and specialists of the Institute and the University, faculty, students and to conduct joint research in the field of science and education. The delegation got acquainted with Institute's greenhouses, agrobiotechnology, plant protection, functional analysis, production, storage and quality laboratories. At the end of the visit, an Agreement on Cooperation in science, education and research was signed between Khazar University and the Azerbaijan Scientific Vegetable Research Institute.















# MƏFAM-ın ictimaiyyətə təqdimatı

2019-cu il dekabrın 20-də, Mövlana Cəlaləddin Ruminin anım həftəsində Xəzər Universitetinin Mərmər salonunda Xəzər Univesiteti ilə "NAB" holdinqin birgə təşkilatçılığı ilə fəaliyyətə başlamış Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar Mərkəzinin (MƏFAM) ictimaiyyətə təqdimatı keçirildi.

Tədbirdə Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, tələbələr, ölkənin tanınmış elm və sənət nümayəndələri, qonaqlar iştirak edirdilər.

Tədbiri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, MƏFAM-ın yaranmasının məqsəd və vəzifələrindən, əhəmiyyətindən danışdı.

Yunus Əmrə İnstitutunun direktoru Dos. Dr. Cihan Özdemir, yurnalist, şair, ictimai xadim Qənirə Paşayeva çıxış edərək, Xəzər Universitetində MƏFAM-ın yaradılmasını alqışladılar və onun milli-mənəvi dəyərlərin formalaşmasında böyük rol oynayacağına əminliklərini bildirdilər.

*(Ardı səh.64-də)*






# presentation of MƏFAM to the public

On December 20, 2019, a public presentation of the Mawlana Literary and Philosophical Research Center (MƏFAM), which began its activity upon the joint arrangements of Khazar University and "NAB" Holding, was held within the Mawlana Jalaladdin Rumi's commemoration week at Khazar University Marble Hall.

The event was attended by Khazar University Leadership and staff, students, country's prominent representatives of science and art, and guests.

Opening the event, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, spoke about the goals and objectives, significance of the establishment of MƏFAM.

While delivering their statements, Associate Professor Jihan Ozdemir, Director of Yunus Emre Institute, Ganira Pashayeva, journalist, poet, public figure, welcomed the establishment of MƏFAM at Khazar University and expressed confidence that it would play a major role in the formation of national-moral values.

*(To be continued page 65)*







Tədbirdə iştirakçılara maraqlı konsert proqramı təqdim olundu. Xəzər Universitetinin Kamera orkestrinin (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) müşayiəti ilə universitetin xor kollektivi və xalq artisti Alim Qasımov və əməkdar artist Fərqanə Qasımovanın iştirakı ilə Nəsiminin sözləri əsasında hazırlanmış musiqi kompozisiyası, Alim Qasımov və Fərqanə Qasımovanın duetində Hüseyn Cavidin "Şeyx Sənan" tamaşasından "Kor ərəbin mahnısı" ifa olundu. İran və Türkiyə folklor musiqisinin bilicilərindən biri kimi tanınan, Oksford Universitetində İran musiqi sənəti üzrə mühazirələr oxuyan və ustad dərsləri keçən David Azad öz orkestrinin müşayiəti ilə mahnılar ifa etdi. İştirakçılara Xəzər Universitetinin qızlardan ibarət rəqs qrupunun ifası da təqdim olundu.

Tədbir Türkiyənin TRT Haber ,TRT Avaz və MTV( Müzik TV) tərəfindən işıqlandırılmışdır:
*https://m.facebook.com/story.php?story_fbid=2650483188374752&id=566626220093803*






The event was followed by an interesting concert program. The musical composition based on the lyrics by Nasimi was performed with the participation of Alim Gasimov, people's artist, and Fargana Gasymova, honored artist, together with the University's Chorus team, followed by their duet rendition of the song "Kor ərəbin mahnısı" ("Song of the Blind Arab") from the "Sheikh Senan" verse play by Huseyn Javid, accompanied by Khazar University Chamber Orchestra (Artistic Director Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department, honored teacher, professor, pianist). David Azad, who is known for his knowledge of Iranian and Turkish folk music, lecturer on Iranian music at Oxford University and who delivers master classes, performed songs accompanied by his orchestra. Khazar University girls' dance group was also presented to the participants.

The event was covered by Turkey's TRT Haber, TRT Avaz and MTV (Music TV):

*https://m.facebook.com/story.php?story_fbid=2650483188374752&id=566626220093803*







# "HACKATHON 2019 - XƏZƏR" YARIŞMASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

# MEETING WITH PARTICIPANTS OF "HACKATHON KHAZAR UNIVERSITY 2019"

2019-cu il dekabrın 20-də Xəzər Universiteti Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadənin təşkilatçılığı ilə "Hackathon 2019 - Xəzər" yarışmasının iştirakçıları ilə görüş keçirildi. Görüşün əsas məqsədi yarışın gedişatı, qaydaları və sonda qalib komandanın dəyərləndirilmə meyarları haqqında məlumat vermək idi.

Görüşdə Təlim və tədris mərkəzinin direktoru Ulkər Bayramova, AL tədqiqatçı Saber Malekzadə və Karyera inkişaf mərkəzinin koordinatoru Fəxrəddin Abdullayev iştirak edərək, tələbələrin suallarını cavablandırdılar.

On December 20, 2019, a meeting was held with the participants of the "Hackathon Khazar University 2019" competition organized by Nilufar Alizade, an instructor at the Department of Psychology, Khazar University and PhD student. The main purpose of the meeting was to provide information on the course, rules and criteria for evaluating the winning team.

Ulker Bayramova, Director of Teaching and Learning Centre, Saber Malekzade, AL researcher, and Fakhraddin Abdullayev, Career Development Center's Coordinator, answered students' questions.



# İNKİŞAF MƏRKƏZİNİN DİREKTORU ADPU-DA "TƏLİM-TƏDRİS VƏ RESURS MƏRKƏZİ"NİN AÇILIŞINDA

# DEVELOPMENT DIRECTOR AT THE OPENING OF "TEACHING-LEARNING AND RESOURCE CENTER" AT ASPU

Dekabrın 20-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Azərbaycan Universitetlərində tədris və təlimin təkmilləşdirilməsi" (PETRA) ERASMUS+ layihəsi çərçivəsində yaradılmış "Təlim-tədris və resurs mərkəzi"nin açılışı olub. Açılışda ADPU-nun rəhbərliyi, Milli ERASMUS+ Ofisinin rəhbəri Pərviz Bağırov və Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva iştirak edib.

Mərkəzin açılışında giriş sözü ilə çıxış edən universitetin rektoru professor Cəfər Cəfərov qonaqları salamlayaraq, mərkəz haqqında məlumat verib və mərkəzə fəaliyyətində uğurlar arzulayıb.

Açılışda qonaqlar Azərbaycan universitetlərinin beynəlxalq layihələrdə uğurlu iştirakından, layihələrin əhəmiyyətindən və əldə olunan nailiyyətlərdən danışaraq, Avropa təcrübəsinin Azərbaycana gətirilməsinin ali təhsil müəssisələrimizdə təhsilin keyfiyyətinə müsbət təsiri olduğunu qeyd ediblər.

Ölkə saytları tədbir haqqında xəbər yaymışlar:

*https://azertag.az/xeber/Pedaqoji_Universitetde_Telim_Tedris_ve_Resurs_Merkezi_achilib-1374483 https://hurriyyet.org/xeber/p-strong-adpu-da-petra-layihesi-ccedil-er-ccedil-ivesinde-yaradilmis-ldquo-telim-tedris-ve-resurs-merkezi-rdquo-nin-a-ccedil-ilisi-olub-strong-p https://www.moderator.az/news/303871.html https://www.baki-xeber.com/sosial/97557.html* və s.

On December 20, an opening ceremony of the "Teaching-Learning and Resource Center" established within the framework of the Erasmus + project of "Improving Teaching and Learning in Azerbaijan Universities" (PETRA), was held at the Azerbaijan State Pedagogical University (ASPU). ASPU leadership, Parviz Bagirov, Head of National ERASMUS + office, and Razia Isayeva, Director of Khazar University Development Center, attended the opening ceremony.

Delivering his opening statement, Jafar Jafarov, Rector of the University, welcomed the guests and gave information about the Center and wished them success in its work.

At the opening, the guests spoke about the successful participation of Azerbaijani universities in international projects, the importance of projects and achievements, and noted that the introduction of European experience in Azerbaijan has a positive impact on the quality of education in our universities.

Country's websites have reported on the event:

*https://azertag.az/xeber/Pedaqoji_Universitetde_Telim_Tedris_ve_Resurs_Merkezi_achilib-1374483 https://hurriyyet.org/xeber/p-strong-adpu-da-petra-layihesi-ccedil-er-ccedil-ivesinde-yaradilmis-ldquo-telim-tedris-ve-resurs-merkezi-rdquo-nin-a-ccedil-ilisi-olub-strong- https://www.moderator.az/news/303871.html https://www.baki-xeber.com/sosial/97557.html* etc.



# UNİVERSİTETDƏ ARXEOLOGİYADAN ƏYANİ DƏRS

# PRACTICAL LESSON IN ARCHEOLOGY AT UNIVERSITY

2019-cu il dekabrın 25-də Xəzər Universitetinin Mərkəz kampusunda AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı Əjdər Babazadə arxeologiyaya giriş fənninin qonağı oldu. Qonağın fənlərarası və innovativ metodoloji yanaşma ilə keçdiyi arxeologiya dərsində daş və digər tapıntıların öyrənilməsi və təsvirinə həsr olunmuş təqdimatı tələbələrin ciddi marağına səbəb oldu. Xüsusilə, əyani olaraq daş və dəvəgözündən olan təcrübi materiallar tələbələrin arxeologiyanın maraqlı və rəngarəng istiqamətlərini qavramalarına müsbət təsir göstərdi.

Fənn müəllimi, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işçisi Orxan Zamanovun nəzəri kursunun məntiqi sonu kimi tələbələrin əməli vərdişlərə yiyələnməsi baxımından artefaktların təsviri çox mühüm əhəmiyyət kəsb edir. Tələbələr seçdikləri eksponat və tapıntıları, ilk dəfə olmasına baxmayaraq, təsvir etməyə müvəffəq oldular. Dərsin sonunda xatirə şəkli çəkdirən tələbələr beynəlxalq təcrübəyə malik qonaq ilə fikir mübadiləsi apardılar və bir sıra suallara cavab tapdılar.

On December 25, 2019, Ajdar Babazade, Staff Member of the Institute of Archeology and Ethnography of ANAS, was the guest of the Introduction to Archeology Course, at Khazar University downtown campus. Presentation of the guest on the study and description of stones and other artifacts in archeology with an interdisciplinary and innovative methodological approach sparked a great interest among the students. In particular, the process of drawing visual materials from stone and agate (Poghosagomer) had a positive effect on students' perception of interesting and multifaceted aspects of archeology.

As a logical end of the theoretical course of Orkhan Zamanov, the subject teacher, research fellow of the Institute of Archeology and Ethnography of ANAS, the description and drawing of artifacts are of great importance. All students were able to describe the exhibits and findings they had selected for the first time. At the end of the lesson, the students took memorable photos and exchanged ideas with a guest with an international expertise and had a chance to get answers to their questions.

# HƏYAT ELMLƏRİ DEPARTAMENTİNİN MÜƏLLİMLƏRİ ADAU-DA

# FACULTY OF LIFE SCIENCES DEPARTMENT VISITED ASAU



2019-cu il dekabrın 25-də Xəzər Universiteti Həyat elmləri departamentinin müdiri Asəf Ömərov və departamentin dosenti Cavid Ocaqi Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) oldular. Səfər zamanı ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov ilə görüş keçirildi, Baytarlıq Təbabəti və Aqronomiya fakültələri, həmçinin, bir sıra kafedralarla tanışlıq oldu. Görüş zamanı ADAU-nun rektoru İbrahim Cəfərov səfərdən məmnunluğunu bildirərək, əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğuladı.

Tərəflər universitetlər arasında qarşılıqlı elmi-tədqiqat işlərinin və müştərək layihələrin həyata keçirilməsinin, yerli və beynəlxalq səviyyəli alimlərin təcrübəsindən yararlanmağın, beynəlxalq və respublika səviyyəli elmi konfrans və sərgilərin birgə təşkilinin əhəmiyyətini qeyd etdilər.

Sonda Azərbaycan Dövlət Aqrar Universiteti ilə Xəzər Universiteti arasında elm, təhsil və tədqiqat üzrə əməkdaşlıq haqqında memorandum imzalandı.

On December 25, 2019 Asaf Omarov, the Head of Life Sciences Department of Khazar University and Associate Professor Javid Ojagi, from the same department, visited Azerbaijan State Agrarian University. During the visit a meeting was held with professor Ibrahim Jafarov, the Rector of ASAU and correspondent member of ANAS, and they were familiarized with the faculty of Veterinary Medicine and Agronomy as well as some other faculties. During the meeting, the Rector of ASAU, Ibrahim Jafarov expressed his satisfaction with the visit and emphasized the importance of further expanding the ties. The parties stressed the importance of the implementation of joint research projects and joint projects between universities, the use of experience of local and international scientists, the joint organization of international and national scientific conferences and exhibitions. Finally, a memorandum on cooperation in science, education and research was signed between the Azerbaijan State Agrarian University and Khazar University.





# SUMQAYIT "DÜNYA" MƏKTƏBİNDƏ "ELM ŞƏNLİYİ" SƏRGİSİ





2019-cu il dekabrın 26-da Xəzər Universiteti Sumqayıt "Dünya" məktəbində "Elm şənliyi" adlı sərgi keçirildi. Sərgidən məqsəd şagirdlərin texniki və təbiət elmlərinin müxtəlif sahələri üzrə apardıqları araşdırmaları əks etdirmək idi.

Sərgidə məktəbin şagird-müəlim kollektivləri və valideynlər, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədli, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Bahman Amani, Fizika departamentinin müdiri Nuru Səfərov iştirak edirdilər.

Qırmızı lenti kəsərək sərgini açan professor Hamlet İsaxanlı çıxışında sərginin əhəmiyyətindən və yüksək səviyyədə təşkilindən danışdı və bu münasibətlə məktəb rəhbərliyini, müəllim və şagird kollektivlərini təbrik etdi.

"Robotların yarışı", "Kimya həyatımızdır", "Dünyanın fizikləri", "Biologiya insanların həyatında", "Vulkanlı dünyamız", "Ədəbi irsimizdən", "Tarixə səyahət", "Dünyanın işləmə mexanizmi", "Think Green, Save the Earth" və digər guşələrə iştirakçılar böyük maraqla baxdılar.

*(Ardı səh.72-də)*



# "SCIENCE FESTIVAL" FAIR AT SUMGAIT "DUNYA" SCHOOL

On December 26, 2019, Khazar University's Sumgait "Dunya" School hosted "Science Festival" Fair. The purpose of the exhibition was to highlight the students' research in various fields of technical and natural sciences.

The event was attended by the students and teachers of the School, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, Associate Professor Irada Khalilova, Rector of the University, Alovsat Amirbeyli, Director for Public Relations and Media, Elza Samedli, Dean of the School of Humanities, Education and Social Sciences, Dr. Bahman Amani, Head of English Language and Literature Department, Nuru Safarov, Head of the Department of Physics.

Professor Hamlet Isakhanli, who opened the exhibition by cutting the red ribbon, spoke about the importance and high level of organization of the exhibition and congratulated the school administration, teachers and students on this occasion.

"Robots Race", "Chemistry is Our Life", "Physicists of the World", "Biology in the Lives of People", "Our Volcanic World", "From Our Literary Heritage", "Travel to History", "Think Green, Save the Earth", "World Mechanism" and the other exhibition stands were of great interest for the participants.

*(To be continued page 72)*











Qarabağ mədəniyyətinə həsr olunmuş bölmədə nümayiş etdirilən təbii daşlardan, torpaq və otlardan uşaqların düzəltdikləri "Şuşa qalası" və "Bərdə türbəsi" maketləri, milli geyimlərin sərgilənməsi heyranlıqla qarşılandı.

Məktəbin rus bölməsinin 5-ci sinif şagirdlərinin müəllimlərin rəhbərliyi ilə Nəcəf bəy Vəzirovun "Nə əkərsən, onu da biçərsən"pyesinin rus dilinə tərcüməsi təqdirəlayiq hadisələrdən biri idi.

IB bölməsinin maraqlı kompozisiyaları, İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş səhnəcik də iştirakçılara təqdim olundu. Məktəbdə əlavə olaraq tədris edilən Çin və Koreya dilləri güşəsi də sərginin rəngarəng hissələrindən idi. ADU Konfutsi İnstitutunun əməkdaşı Nigar Qocayevanın rəhbərliyi ilə məktəbdə tədris olunan Çin dili kurslarının şagirdləri Çin dili və mədəniyyətini əks etdirən təqdimatlarla çıxış etdilər. İştirakçılar ənənəvi Çin çay dəmləmə mərasimini izləyərək, Çin çayını daddılar.

Tədbirdə Konfutsi İnstitutunun direktoru Rafiq Abbasovun müəllifi olduğu Çin dilində nəşr edilən, Azərbaycan və Çin arasında ənənəvi dostluq münasibətləri, hərtərəfli əməkdaşlığın möhkəmləndirilməsi və inkişafından bəhs edən "İlham Əliyev – iki qədim xalqın dostluğunun müasir davamçısı" adlı kitabı tədbir iştirakçılarına hədiyyə olundu.

Qeyd edək ki, sərgidə nümayiş etdirilən şagird yaradıcılığından ibarət kompozisiyalar, elmi araşdırmalar, təcrübi işlər ölkəmiz daxilində bir sıra tədbirlərdə və yarışmalarda iştirak edəcəkdir. Bunlardan biri olan "Ekoloji dayanacaq" adlı ixtira və dizayn işi hər il təşkil edilən "Sabahın alimləri" layihəsinə qatılacaq. Sərgidə nümayiş olunan iki əl işi "Türk Dünyası Elim Olimpiadaları" adlı düzayn yarışmasında iştirak edəcək layihələrdəndir. Bu işlərdən biri "Well Chair" – Əlil kreslosu, digəri isə marketlərdə rahat alış-veriş üçün təşkil olunmuş xüsusi proqramlı kiçik lövhədir.

Sərgi ümumilikdə Xəzər Universiteti Sumqayıt "Dünya" məktəbində şagirdlərin elmi potensialı və yaradıcılıq qabiliyyətlərinin inkişafı sahəsində məqsədyönlü işlər aparıldığını əyani nümayiş etdirdi.

AZƏRTAC və digər media vasitələri tədbir haqqında xəbər yaymışlar:

*https://azertag.az/xeber/Konfutsi_Institutu_Sumqayit_Dunya_Mektebinin_sergisinde-1379134*
*https://www.moderator.az/news/304630.html*
*https://az.trend.az/azerbaijan/society/3171433.html* və s.

The "Shusha Tower" and "Barda Tower" models made by children themselves with the usage of natural stones, soil and grass, and also the exhibition stand of national costumes displayed in the section dedicated to the Karabakh culture, was met with admiration. Translation of Najaf bey Vazirov's play "As you sow, so shall you reap" into the Russian language by the 5th-grade students of the Russian section, under the guidance of the teachers of the school, excited general admiration.

Interesting compositions of the IB section and the scene dedicated to the 650th anniversary of Imaddin Nasimi were also presented to the participants.

The exhibition stands of Chinese and Korean languages, being taught as additional languages, were also the colorful parts of the exhibition. Students of Chinese language courses made presentations on Chinese language and culture, led by Nigar Gojayeva, a member of the Confucius Institute at ASU. Participants tasted Chinese tea following a traditional Chinese tea brewing ceremony.

The book published in Chinese language by Rafig Abbasov, Director of the Confucius Institute, entitled "Ilham Aliyev - a contemporary successor of friendly relations between the two ancient nations", which writes about the traditional friendly relations between Azerbaijan and China, the strengthening and development of comprehensive cooperation, was presented to the participants of the event.

It should be noted that compositions, scientific researches, experimental works of students, presented at the exhibition will take part in a number of events and competitions within the country. One of them will participate in the annual "Scientists of Tomorrow" project, an invention and design project called "Environmental Stop". The two works presented at the exhibition are among the projects that will be part of the design contest entitled "Turkish World Knowledge Olympiad". One of these works is the "Well Chair" - a wheelchair and the other a small board with special software for convenience shopping in the markets.

In general, the Exhibition demonstrated that substantial work has been carried out in the field of developing students' scientific potential and creative abilities at Khazar University's Sumgait "Dunya" School.

AZERTAC and other media spread news about the event:

*https://azertag.az/xeber/Konfutsi_Institutu_Sumqayit_Dunya_Mektebinin_sergisinde-1379134*
*https://www.moderator.az/news/304630.html*
*https://az.trend.az/azerbaijan/society/3171433.html* *ets.*















# "DÜNYA" MƏKTƏBİNDƏ ƏLİL VƏ QƏYYUMLUQDA OLAN UŞAQLAR ÜÇÜN YENİ İL ŞƏNLİYİ

# NEW YEAR CELEBRATION FOR CHILDREN WITH DISABILITIES AND IN CUSTODY AT BAKU "DUNYA" SCHOOL

2019-cu il dekabrın 27-də Xəzər Universiteti "Dünya" məktəbində məktəbin və Binəqədi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə əlil və qəyyumluqda olan uşaqlar üçün Yeni il şənliyi keçirildi.

Tədbirdə çıxış edən Dünya məktəbinin direktoru Mərufə Mədətli, Binəqədi Rayon İcra Hakimiyyəti aparatının baş məsləhətçisi Elnur Məmmədov, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu Orxan Əliyev tədbir iştirakçılarını bayram münasibətilə təbrik edib, uşaqlara, gənc nəslə göstərilən dövlət qayğısından danışdılar.

Şaxta baba və Qar qız uşaqları maraqlı çıxışları və bayram sovqatları ilə sevindirdilər, "Dünya" məktəbinin şagirdlərinin hazırladıqları bədii-musiqili proqram iştirakçılarda xoş əhval-ruhiyyə yaratdı.

On December 27, 2019, Khazar University Baku "Dunya" School hosted a New Year celebration for children with disabilities and those in custody, jointly organized by the school and Binagadi District Executive Power.

Speaking at the event, Marufa Madatli, Dunya School Director, Elnur Mammadov, Chief Advisor of Binagadi District Executive Power, and Orkhan Aliyev, Counselor-Psychologist of the Commission on Juveniles Affairs and Protection of their Rights, congratulated the participants on the occasion of the holiday and talked about the state care provided to children and the younger generation.

Santa Claus and Snow Maiden amused with their interesting performances and festive gifts, and the artistic-musical program, prepared by the students of the "Dunya" school, cheered the participants.









# TURİZM AGENTLİYİNİN ƏMƏKDAŞLARI TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜLƏR

# TOURISM AGENCY STAFF MET WITH STUDENTS

2019-cu il dekabrın 27-də Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə Turizm Dövlət Agentliyi nümayəndələrinin turizm və otelçilik ixtisasının tələbələri ilə görüşü keçirildi. Görüşün əsas məqsədi tələbələri Turizm Dövlət Agentliyinin fəaliyyəti haqqında məlumatlandırmaq, onların turizmin inkişafı istiqamətində həyata keçiriləcək layihələrdə iştirak imkanlarını nəzərdən keçirmək idi.

Görüş zamanı Azərbaycan Dövlət Turizm Agentliyinin Təhsil və təlim sektorunun müdiri Hüseyn Həsənov çıxış edərək, Azərbaycanda turizm sektorunun inkişaf istiqamətləri, mövcud problemlər və onların həlli yolları haqqında ətraflı məlumat verdi. Bundan başqa, Hüseyn Həsənovun təmsil etdiyi qurumun fəaliyyət göstərdiyi bir il ərzində həyata keçirilən layihələr, görülən işlər qeyd olundu.

Sonra görüş Turizm Dövlət Agentliyinin nəzdində fəaliyyət göstərən "Turizm Könüllüləri" təşkilatının sədri Hüseyn Məmmədovun təşkilat haqqında təqdimatı ilə davam etdirildi. Təşkilatın tələbələr üçün yaratdığı təcrübə proqramları, yerli və beynəlxalq layihələrdə iştirak imkanları tələbələrin dərin marağına səbəb oldu.

On December 27, 2019, Khazar University School of Economics and Management successfully organized a meeting between its students majoring in tourism and experts invited from Tourism Government Agency of the Republic of Azerbaijan. The main purpose of the event was to introduce students to activities performed by Tourism Government Agency and to consider opportunities for students to participate in projects aimed at developing tourism. During the meeting, Huseyn Hasanov Head of Education and Training Division of Tourism State Agency, delivered a speech, providing information about potential growth opportunities in tourism sector, current problems and possible solutions. Moreover, during his speech Huseyn Hasanov noted the projects and works delivered during the year by the organization he represented. The event went on with the presentation delivered by Huseyn Mammadov, the Head of "Tourism Volunteers" Organization which is an affiliation of Tourism Government Agency. Students showed keen interest in opportunities introduced by the organization, such as internship programs and opportunities to participate in local and international projects.







# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ BAYRAM ŞƏNLİYİ

2019-cu il dekabrın 28-də Xəzər Universitetinin Mərmər salonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram şənliyi keçirildi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, cari ildə universitetin əldə etdiyi nailiyyətlərdən və gələn il üçün nəzərdə tutulan inkişaf perspektivlərindən danışdı, əməkdaşları təbrik etdi, onlara şəxsi həyatlarında və əmək fəaliyyətlərində uğurlar arzuladı.

Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Dillər və ədəbiyyatlar departamentinin müdiri, dosent Dilbər Zeynalova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekan müavini Fəxrəndə Əlimərdanova çıxış edərək, əməkdaşlara təbriklərini və xoş arzularını çatdırdılar.

Universitetin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev bayram şamlarını yandırıb, tortu kəsdi.

*(Ardı səh.78-də)*







# INTERNATIONAL SOLIDARITY DAY OF AZERBAIJANIS AND NEW YEAR CELEBRATION

On December 28, 2019, the International Solidarity Day of Azerbaijanis and the New Year celebrations were held at Khazar University Marble Hall. The event was attended by University leadership and staff.

Professor Hamlet Isakhanli, the Founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, while delivering his statement, spoke about University's achievements gained during the current year and the prospects for its development envisaged for the next year, he conveyed his congratulations to the staff and wished them success in their personal lives and career.

Associate Professor Irada Khalilova, the Rector of Khazar University, Isakhan Isakhanli, Vice-Rector for Administration and Student Affairs, Alovsat Amirbeyli, Director for Public Relations and Media, Associate Professor Dilbar Zeynalova, Head of Languages and Literature Department, Fakhrenda Alimardandanova, Deputy Dean of the School of Sciences and Engineering, delivered congratulatory speeches and expressed their best wishes.

Professor Mahammad Nuriyev, Vice-Rector for Academic Affair, lighted the candles and cut the cake.

*(To be continued page 78)*








Universitetin həmkarlar təşkilatı tərəfindən keçirilən lotereyada uduş-hədiyyələri iştirakçılara təşkilatın sədri Ələvsət Əmirbəyli təqdim etdi.

Universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin müşayiəti, vokalçılar - Müslüm Maqomayev adına Akademik Dövlət Filarmoniyasının solisti, Xəzər Universitetinin müəllimi Məhsəti Cabbarova və Bakı Musiqi Akademiyasının doktorantı Rüfət Piriyevin iştirakı ilə konsert proqramı təqdim olundu.

Əməkdaşlar rəqs edib, şənləndilər. Bayram tədbiri xoş əhval-ruhiyyə ilə başa çatdı.

The participants of the lottery, organized by the University's trade union organization, were given winning prizes by the Chairman of the organization Alovsat Amirbeyli.

The concert program was presented, being led by the Associate Professor Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department, honored teacher, pianist, accompanied by the University's Chamber Orchestra, and with the participation of Mahsati Jabbarova, Soloist of the Academic State Philharmonic named after Muslim Magomayev, Khazar University Teacher, and Rufat Piriyev, PhD student of the Baku Music Academy.

The staff danced and cheered. The celebration ended with a joyful mood.



# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqede iştirak etmek üçün mektebe gelmekle, bize zeng etmekle ve ya online qeydiyyatdan keçe bilersiniz.

http://e.dunyaschool.az/sagirdqebul/

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairesi esas götürülür. Her bir şagirdin ferdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qebul imtahanında en yüksek netice gösteren VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölmesinde tedris Beynəlxalq Bakalavr Teşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur. Diplom proqramında təhsil müddəti iki ildir (X,XI siniflər).

Azerbaycan ve rus bölmelerinde ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman ve ya çin dili de öyredilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür ve tedris prosesinin teşkili bu yönümde qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam esaslar üzerinde qurulmuş ciddi nizam-intizam telim-terbiye prosesinin yüksek seviyyede teşkiline kömek edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana Məktebine qebul zamanı her bir uşağın fərdi xüsusiyyetlerini öyrenmek üçün mektebin psixoloqu valideynlerle ferdi söhbetler aparır. Uşaqlar psixoloji müayineden ve hekim müayinesinden keçirilir. Uşaqların sağlamlığı, normal qavrama qabiliyyeti, selis nitqi ve maraq dairesi esas götürülür. Mektebe qebul edilecek şagirdler "Şagird qebulu üzre məktebdaxili komissiya"nın rəyi esasında müeyyen edilir ve mekteb rehberinin əmri ile resmileşdirilir.

Qebul üçün teleb olunan senedler:

- Ərizə
- 4 eded fotoşekil (3x4, rengli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

**ÜNVAN**

Əcəmi Naxçıvani 9

**TELEFONLAR**

+994 12 563 59 40/47/48

+994 55 632 95 28

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi